YENİ MÜSAVAT

www.musavat.com

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 15 sentyabr 2023-cü il Cümə № 164 (8300) Qiyməti 60 qəpik

Xəbər

Yeni dərs ili başladı

yazısı səh.12-də

Gündəm

Bakının azad edilməsinin 105-ci ili



İki qardaş ölkənin qürur tarixi

yazısı səh.6-da

İranın dinc qalmayan dili - Tehranın üslubu düzəlmir

yazısı səh.7-də

ABŞ etiraf edir ki, Xankəndidə etibarlı adamı yoxdur

yazısı səh.8-də

Rusiyanın məşhur nəşri ermənilərı Azərbaycan Ordusu ilə qorxutdu: "Zəngəzura girib..."

yazısı səh.9-da

Yəhudilər Ermənistanı bu səbəbdən tərk edir

yazısı səh.10-da

ABŞ-ın anons etdiyi Vaşinqton görüşü: Paşinyanın üzü yoxdur...

yazısı səh.11-də

Teatrlar yeni mövsümə köhnə repertuarla başlayır

yazısı səh.12-də

Sərkisyan Vladivostokdan mesajını aldı

yazısı səh.11-də

Naxçıvanda taksi qadağası ilə bağlı ziddiyyətlə xəbərlər

yazısı səh.13-də

Azərbaycan narının "dərdləri": xarici bazar, daha nələr...

yazısı səh.14-də

Yanvarda pensiyalar nə qədər artırılacaq?

yazısı səh.13-də

BAKININ 4 CÜMLƏLİK DONBAS BƏYANATINA RUSİYANIN DEMARŞI

Müttəfiqlik bəyannaməsində "Rusiya hansısa ərazini işğal edəcəksə, Azərbaycan onu tanımalıdır" deyə bir bənd yoxdur; Moskvanın bu qədər qəzəbinin daha hansı səbəbləri ola bilər...


yazısı səh.4-də



"Uzunömürlü rektorlar"da işdən çıxarılacaq - kimlərdir?

5 il qaydası prezidentin qərarından əvvəl təyin edilən rektorlara aid olmasa da, onların fəaliyyəti də ciddi müzakirələr yaradır, yaxın günlərdə yeni fərmanlar gözlənilir

yazısı səh.10-da



İlqar Məmmədov

Bu deputatların seçkì daìrələrì ləğv edìlìr - REAL sədrìndən şok ìddìa

yazısı səh.3-də



Qüdrət Həsənquliyev:

"Laçın postunda ermənilərə Azərbaycan pasportu verìlməlìdìr"

yazısı səh.5-də



Hìkmət Hacıyev "Polìtìco" nəşrìndəkì məqaləsìndə nələr yazıb?

yazısı səh.9-da



Prezident Mərkəzi Asiya ölkələri liderləri ilə bir arada

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonun dəvəti ilə Mərkəzi Asiya Dövlət Başçılarının 5-ci Məşvərət görüşündə fəxri qonaq qismində iştirak etmək üçün sentyabrın 14-də Tacikistana səfərə gəlib. Düşənbədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon ilə təkbətək görüşü olub.

Sentyabrın 14-də Düşənbədə Mərkəzi Asiya Dövlət Başçılarının 5-ci Məşvərət görüşü keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev görüşdə fəxri qonaq qismində iştirak edib.

Tacikistan Prezidenti Emoməli Rəhmon Azərbaycan Prezidenti İlham Əliyevi və digər dövlət başçılarını qarşılayıb.

Azərbaycanı və Mərkəzi Asiya ölkələrini xalqlarımızın çoxəsrlik qardaşlıq münasibətləri bağlayır. Ortaq mədəni köklər dövlətlərarası əlaqələrin möhkəm bünövrəsini təşkil edir.

Bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev Tacikistanda keçirilən Mərkəzi Asiya Dövlət Başçılarının 5-ci Məşvərət görüşündə çıxışı zamanı deyib.

Dövlət başçısı bildirib: "Otuz ildən artıqdır ki, biz müstəqil dövlətlər kimi həm ikitərəfli, həm çoxtərəfli formatda fəal şəkildə qarşılıqlı fəaliyyət aparırıq, bir-birimizin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü dəstəkləyirik, iqtisadi əlaqələri fəal şəkildə inkişaf etdiririk".

Prezident İlham Əliyev həmçinin vurğulayıb ki, Mərkəzi Asiya və Azərbaycan artan iqtisadiyyatı, demoqrafiyası və geosiyasi potensialı ilə dünya siyasətində strateji əhəmiyyətə malik olan vahid tarixi-mədəni coğrafi regiondur.

Türkiyənin baş prokuroru Şuşada

Azərbaycanda səfərdə olan Türkiyənin baş prokuroru Bəkir Şahinin rəhbərlik etdiyi nümayəndə heyəti Şuşaya səfər edib.

Səfər iştirakçıları Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılan şanlı qələbə nəticəsində Şuşaya səfər etmək imkanı əldə etdiklərini, bu tarixi torpaqda olmaqdan sevinc və qürür hissi keçirdiklərini bildirib, Cıdır düzü, Yuxarı və Aşağı Gövhər Ağa məscidləri, Qala divarları, Gəncə qapısı və bir sıra tarixi-mədəni abidələri ziyarət edib, vandalizmin ağır nəticələrini təəssüf hissi ilə müşahidə edib, mədəniyyət paytaxtımızda görülmüş bərpa-quruculuq işləri ilə yaxından tanış olublar.

Bakıda dəhşət: arvadını boğub öldürdü

Sabunçu rayonu Zabrat qəsəbəsində evlərin birində 1974-cü il təvəllüdlü Zülfüqarova Xalidə Şirəli qızının boğularaq öldürülməsi barədə polisə məlumat daxil olub.

Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətindən bildirilib ki, cinayət əməlini törətməkdə şübhəli bilinən, qadının həyat yoldaşı 1960-cı il təvəllüdlü Məmmədov Şahniyar Məhəmməd oğlu polis əməkdaşları tərəfindən saxlanılıb.

İlkin məlumata görə, cinayət hadisəsi qısqanclıq zəminində baş verib.

Sumqayıtda aşkarlanan təhlükəli radioaktiv maddə nədir?



İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin Sumqayıt şəhərində apardığı nüvə-radioloji tədqiqatları zamanı təhlükəli Sezium-137 radioaktiv maddəsi aşkarlanıb.

İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin Nüvə tədqiqatları departamenti tərəfindən Sumqayıt şəhərində aparılan radioloji sınaqlar zamanı şəhər ərazisində anomal radiasiya göstəricilərinə malik sahə aşkar edilib. Təkrar yoxlamalar vasitəsilə nəticələr təsdiqləndikdən sonra bu barədə aidiyyəti dövlət qurumları müvafiq qaydada məlumatlandırılıb.

Mütəxəssislər tərəfindən digər aidiyyəti dövlət qurumlarının əməkdaşları ilə birlikdə radioloji şəraitin qiymətləndirilməsi üzrə radiometrik-dozimetrik və spektrometrik ölçülər aparılıb və ərazidə yüksək radiasiya təhlükəli zonanın müəyyən edilməsi məqsədi ilə nüvə-radioloji sınaq işləri görülüb.

Agentlik tərəfindən hazırda müxtəlif ölkələrdə belə halların aradan qaldırılması zamanı cavab tərbirləri üzrə analitik planlar öyrənilərək təhlil edilir və öyrənilmiş dərslər ümumiləşdirilir. Aşkar edilən radiasiya təhlükəli zonanın minimium zərərlə aradan qaldırılması ilə bağlı tədbirlər planına daxil edilmək üzrə təkliflər Agentlik tərəfindən yaxın günlərdə müvafiq qurumlara operativ şəkildə təqdim ediləcək.



Rövnəq Abdullayev millinin futbolçularına nə vəd edib?

AFFA prezidenti Rövnəq Abdullayev millinin futbolçularına gözlədikləri xəbər verib.

Sportinfo.az xəbər verir ki, federasiya başçısı onlarla son görüşdə mükafatdan bəhs edib.

Bildirib ki, AVRO-2024-ün seçmə mərhələsinin dördüncü turunda Belçikaya 0:1 hesablı məğlubiyyətə rəğmən, sərgilənən oyun onun xoşuna gəlib və bu münasibətlə komandanı stimullaşdırmaq fikrindədir.

O, kollektiv üzvlərinin hər birinə 2500 manat ödəməyi planlaşdırdığını söyləyib.

Qurumun rəhbəri qarşılaşmadan əvvəl hamının böyük hesablı yenilginin olacağını proqnozlaşdırdığını, lakin meydanda bərabər mübarizənin getdiyini söyləyib.

R.Abdullayev "biz düzgün yoldayıq" ifadəsini işlədib, qarşıdakı turlarda qələbələrin qeydə alınacağına əminliyini ifadə edib.

Hindistan Ermənistana təhlükəli silahlar verdi

Hindistan avqust ayında Ermənistana altı ədəd 155 mm-lik ATAGS artilleriya sistemi təhvil verib.

Bu barədə "Indian Defense Research Wing" nəşri yazıb.

Nəşrin məlumatına görə, artilleriya sistemlərini istehsal edən "Bharat Forge" şirkətinin icraçı direktoru məlumatı təsdiq edib.

Müqavilə növbəti üç il ərzində əlavə 84 haubitsanın mərhələli şəkildə çatdırılmasını nəzərdə tutur. Sövdələşmənin dəyəri 155 milyon dollardır. O da bildirilir ki, Hindistan sifarişləri vaxtından əvvəl çatdırmağı planlaşdırır.

Məqalədə iddia edilir ki, Ermənistan ordusu artilleriya sistemlərini sifariş verməzdən əvvəl Hindistan ordusunun Poxran poliqonunda onları sınaqdan keçirib. Sınaqlar iki ay davam edib.

Artilleriya sistemini Hindistanın "Bharat Forge Ltd" şirkətinin törəməsi olan "Kalyani Strategic Systems Ltd" istehsal edir. Yedəkdə daşınan qurğular 48 km-lik hədəfi vura bilir.

Qeyd edək ki, bundan əvvəl mətbuatda Hindistanın Ermənistana "Pinaka" reaktiv yaylım atəş sistemləri tədarük edəcəyi barədə məlumatlar yayılıb. Vətən müharibəsindən əvvəl isə Ermənistan bu ölkədən Ermənistan Hindistandan "Swathi" atəş yeri aşkarlama radarları alıb.

3 uşaq atası özünü asdı

Qəbələ rayonunda intihar hadisəsi baş verib.

Hadisə rayonun Zarağan kəndində qeydə alınıb. Belə ki, kənd sakini Elşən Elxan oğlu Abdurrəhmanov yaşadığı evin həyətində özünə qəsd edib. Məlumata görə, E.Abdurrəhmanov ailəli olub, 3 övladı var.

Qəzada həlak olan hərbçilərimizə şəhid statusu veriləcək

Azərbaycan Ordusunun hərbi qulluqçuları Əliyev Taleh Saleh oğlu, Həsənov Elgün Elşad oğlu və Namazov Nihad Kamrəddin oğluna şəhid statusu veriləcək.

Bu barədə Səfərbərlik və Hərbi Çağırış üzrə Dövlət Xidmətinin mətbuat xidmətindən bildirilib.

Qeyd olunub ki, qəza nəticəsində həyatlarını itirən Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə hərbi hissə tərəfindən təqdim ediləcək bildiriş əsasında şəhidlik statusu veriləcək.

Xankəndi köçkünlərindən müraciət

Azərbaycanın Xankəndi şəhəri, Xocalı, Xocavənd və Qarabağ bölgəsinin hazırda Rusiya sülhməramlılarının müvəqqəti nəzarətində olan digər rayonlarından olan məcburi köçkünlər dünya ictimaiyyətinə müraciət ünvanlayıblar.

Müraciətdə deyilir: "Biz - Xocalı, Xankəndi, Xocavənd və Qarabağ bölgəsinin hazırda Rusiya sülhməramlılarının müvəqqəti nəzarətində olan digər rayonlarından olan məcburi köçkünlər dünya ictimaiyyətinə bəyan edirik ki, Qarabağ münaqişəsi 2020-ci ildə başa çatsa da, 3 ildir hələ də öz şəhər və rayonlarımıza, kəndlərimizə, evlərimizə, yurd yerlərimizə qayıda bilmirik.

Ermənistan saxta təbliğat aparır ki, guya həmin bölgələrdə ancaq ermənilər yaşayıblar. Onlar hətta azərbaycanlıların tarixən həmin ərazilərdə yaşamaları faktını belə danır. Bu uydurma iddiadır! Bizik Xocalının, Xankəndinin, Kərkicahanın, Malıbəylinin, Quşçuların, Meşəlinin, Qaradağlının əsl, əzəli sakinləri!

Ermənistan ordusunun qalıqları həmin ərazilərdən tamamilə çıxarılmalı, Ermənistanın yaratdığı və hələ də dəstəklədiyi oyuncaq xunta rejiminin tör-töküntüləri özünü buraxmalı, qanunsuz silahlı dəstələr tərksilah olunmalıdır. Bu, bizim tələbimizdir! Bu, bütün Azərbaycanın tələbidir! Dünya ictimaiyyətinə çağırış edirik ki, Ermənistandan Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə qarşı addımlara son qoymağı tələb etsin, bizim öz evimizə qayıtmaq hüququmuz təmin edilsin!"

YENİ MÜSAVAT
N 164 (8300) 15 sentyabr 2023

"Uzunömürlü rektorlar"ın da işdən çıxarılacağı gözlənilir - kimlərdir?

5 il qaydası prezidentin qərarından əvvəl təyin edilən rektorlara aid olmasa da, onların fəaliyyəti də ciddi müzakirələr yaradır, yaxın günlərdə yeni fərmanlar gözlənilir



2018-ci ildə Prezident İlham Əliyevin imzaladığı fərmanla Azərbaycanda dövlət ali təhsil müəssisəsində rektor 5 il müddətinə təyin edilir.

Fərmanın imzalanmasından 5 ilə yaxın müddət keçir. Ancaq fərmandan əvvəl təyin edilən bəzi rektorlar uzun illərdir bu vəzifələri tuturlar. 5 il qaydası prezidentin qərarından əvvəl təyin edilən rektorlara aid olmasa da, onların fəaliyyəti və vəzifə müddəti zaman-zaman müzakirələrə səbəb olur.

Modern.az rektorların vəzifədə qalma müddətləri ilə bağlı araşdırma aparıb. Hazırda Azərbaycanda 33 dövlət ali təhsil müəssisəsi fəaliyyət göstərir. Onlardan 10-nun rektoru 2018-ci ildə imzalanan fərmandan sonra təyin edilib. Prezident sentyabrın 13-də Bakı Mühəndislik Akademiyasının və Sumqayıt Dövlət Univeritetinin rektorunu artıq vəzifədən çıxarıb. Sumqayıt Dövlət Universitetinin rektoru 2014-cü ildən, Havar Məmmədov isə 2016-cı ildən Bakı Mühəndislik Universitetinə rəhbərlik edirdi.

Digər "uzunömürlü" rektorlar bunlardır: Azərbaycan Tibb Universiteti - Tibb profilli ali təhsil müəssisəsinə 2016-cı ildən Gəray Gəraybəyli rəhbərlik edir. Azərbaycan Dövlət İqtisad Universiteti - 9 ildir ki, (2014-cü ildən) Ədalət Muradov rektordur. Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası - 2015-ci ildən Fuad Hacıyev rəhbərlik edir. Gəncə Dövlət Universiteti - Yusif Yusibov 2014-cü ildən rəhbərlik edir. Azərbaycan Dillər Universiteti - 2017-ci ildən Kamal Abdulla rəhbərlik edir. ADA Universiteti - 2006-cı ildən Hafiz Paşayev rektorluq edir. Azərbaycan Memarlıq və İnşaat Universiteti - Gülçöhrə Məmmədova 1999-cu ildən rəhbərlik edir. Bakı Ali Neft Məktəbi - Elmar Qasımov 2012-ci ildən rektorluq edir.

Deputat Ceyhun Məmmədov sayta deyib ki, uzun müddət işləmiş rektorlar ya yenilənməsi, ya da əgər işini doğrultmursa, həmin şəxsin vəzifədən uzaqlaşdırılması ilə bağlı məsələlərə baxılmalıdır: "Bununla bağlı qərarlar qəbul edilməlidir. Əlbəttə, bir şəxs uzun müddət, yəni 20-30 il eyni vəzifədə işlədikdə, bu onun iş keyfiyyətinə ciddi şəkildə təsir göstərir. Düşünürəm ki, bunun təhsilimizə də mənfi təsiri var. Yəni bir şəxs uzun illər rektor kimi fəaliyyət göstərdikdə, bu həm də onda müəyyən bir arxayınlıq yaradır. Bəzi universitetlər inkişaf edir, bəzi universitetlər isə ciddi tənəzzül yaşayır. Bu, bilavasitə bizim rektorların fəaliyyətindən asılıdır".

Qeyd edək ki, bu məsələ bir neçə dəfə Milli Məclisdə də müzakirəyə çıxarılıb. Bundan əvvəl deputat Etibar Əliyev Milli Məclisin iclasında bildirib ki, Azərbaycanda 20 ildən çox, hətta 32 ildir işləyən rektorlar var, onlar artıq durğunluq yaradırlar. Halbuki qanunvericiliklə rektorlar 5 ildən bir təyin olunmalıdır. Deputat qeyd edib ki, Elm və Təhsil Nazirliyi yalnız normativ sənədlərlə işləyir: "Təhsil ocaqlarında özbaşınalıq, korrupsiya halları hələ də qalır. Pedaqoji və Tibb Universiteti nəinki top siyahı, heç 1500 universitet içində belə yoxdur. Düşünə bilirsiniz ki, ölkədə müəllim və həkim yetişdirən təhsil ocaqlarının vəziyyəti necə acınacaqlıdır?!"

Təhsil eksperti Kamran Əsədov "Yeni Müsavat"a rektoru dəyişdirilməsi vacib olan bir neçə universitetin adını çəkdi: "Ölkə Prezidenti İlham Əliyevin 2019-2023-cü illəri əhatə edən "Ali Təhsilin beynəlxalq rəqabətliliyin artması" ilə bağlı Dövlət Proqramı var idi. Etiraf edək ki, ali təhsil müəssisələri bu istiqamətdə iş görmədilər. Birmənalı şəkildə son dörd il ərzində yalnız Bakı Dövlət Universiteti, İqtisad Universiteti, ADA universiteti, Neft və Sənaye Universiteti dünya reytinqində irəlidədir. Son dörd il ərzində BDU-nun beynəlxalq reytinqi əvvəlki on beş ildən dəfələrlə çox oldu. Digər universitetlərə baxırıq ki, dünya reytinqində inkişaf etmək imkanları var, amma edə bilmədilər. Misal üçün, bunlardan dəyişiklik gözlədiyimiz Memarlıq və İnşaat Universitetidir. Azərbaycanda işğaldan azad olunan torpaqlarda quruculuq bərpa işləri, yol tikintisi aparılır. Bakı şəhərindəki memarlıq abidələrini də görürük, amma bunların heç birində Memarlıq və İnşaat Universitetinin məzunlarını görə bilmirik. Eyni zamanda həmin universitetin məzunlarının göstəricilərini də görə bilmirik. Təsəvvür edin, hər il ali təhsil müəssisələrinə qəbul imtahanında ən aşağı ballarla biz tələbələrin Memarlıq və İnşaat Universitetinə qəbulunu görə bilirik. Tələbələrin təkcə ən aşağı balla qəbulunu yox, həmçinin məzun olma və əmək bazarında iş tapma imkanlarının bu universitetdə çox aşağı səviyyədə olduğunu görürük. Bu onu göstərir ki, universitetdə çox ciddi dəyişikliyə ehtiyac var.

Uzun illər idi ki, neqativ hallar Sumqayıt Dövlət Universitetində var idi, burada rektor dəyişildi. Bakı Mühəndislər Universitetinin rektoru ona görə dəyişməli idi ki, bu gün texniki və mühəndislik ixtisaslarına böyük ehtiyacımız var. Amma bu universitetlər proseslərdən geri qalırdılar. Region universitetlərinə baxın, misal üçün, Gəncə Dövlət Universiteti, regionda təhsilə nəzarət edə bilmir. Regiondakı gənclər Gürcüstana, Rusiyaya gedirlər, amma bizi seçmirlər".

Ekspert əlavə etdi ki, dəyişiklik gözlənilən daha bir ali təhsil ocağı Azərbaycan Dövlət Pedaqoji Universitetidir: "Baxın, nazir açıqladı, 743 müəllim sertifikasiyadan keçə bilməyib. Yaxud da Pedaqoji Universitetin məzunlarının MİQ nəticələri nə qədər aşağıdır. Azərbaycan Dillər Universitetinin məzunlarının da əmək bazarında yeri yoxdur. Özəl universitetin, hətta kolleclərin məzunları daha yaxşı nəticə göstərir. Xarici dil müəllimliyi ixtisasına qəbulda baxırıq ki, məzunları çox geridirlər. Bu universitetlə bağlı yaxınlarda dəyişiklikləri gözləyirəm. Ölkədə 51 universitet var, heç biri dünya reytinqində öndə deyil. Sadəcə, üç universitet namizəddir, onların da nəticələri mindən yuxarı deyil. Bəs digərləri? Ona görə digər universitetlərdə də rektor dəyişikliyini gözləyirik".

Millət vəkili Aqil Abbas da "Yeni Müsavat"a fikirlərini bildirdi. O dedi ki, bəlkə o rektorlar o yerdə qalmağa layiqdirlər, ona görə çıxarılmırlar: "Mən kiminsə yerinə danışa bilmərəm. Amma kadrların tez-tez dəyişməsi də müsbət nəticə verir. Onu da görmüşük. Bir pis iş odur ki, təzə rektor gələn kimi bundan əvvəl işləyən hamını işdən çıxarır. Yeni rektorların islahatı budur. Köhnə rektora kim salam verirsə, münasibəti yaxşı olubsa, hamısını işdən çıxarır. Ömər Eldarov neçə il Rəssamlıq Akademiyasında işlədi. Onun yerinə rektor qoydular, indi akademiyanı dağıdır. Belə məsələlər də var".

Təhsil eksperti Adil Vəliyev də bizimlə söhbətdə dedi ki, artıq bu məsələnin həlli tapmalıdır: "Universitetlərdə 10 ildən artıq rektor olanlar var. Diqqət edəndə görürük ki, həmin universitetlərdə inkişaf adında heç nə yoxdur. Düşünürəm ki, Prezidentin imzaladığı qərara əsasən 5 ildən bir artıq universitetlərdə rektorlar dəyişməlidir. Qərar əgər icra olunsa, universitetlərin inkişafı üçün çox müsbət addım olar. Bir insan bir vəzifədə uzun müddət qaldıqda orada inkişafdan söz gedə bilməz. Ən azı həmin rektorların yerləri dəyişə bilər, ya da yeniliyə, inkişafa açıq biri ilə əvəz olunmalıdır ki, həmin universitetlərdə inkişafı görə bilək. Çünki son illərdə görürük ki, Azərbaycan universitetləri dünya reytinq sıralamalarında heç bir uğur əldə edə bilmirlər. Nəticələrimiz də ürəkaçan deyil. Düşünürəm ki, Prezidentin fərmanı düzgün icra olunmalıdır ki, nəticəsini də görə bilək".

❑ **Afaq MİRAYİQ,**
"Yeni Müsavat"



Bu deputatların seçki dairələri ləğv edilir - REAL sədrindən şok iddia

REAL Partiyasının sədri İlqar Məmmədov özünün sosial media hesabında Azərbaycanda bir sıra seçki dairələrinin ləğv olunacağını və yenilərinin yaradılacağını bildirib.

Partiya sədri ləğv ediləcək 3 seçki dairəsinin adını açıqlayıb.

Onun sözlərinə görə, 114 saylı Şəki kənd birinci seçki dairəsi (bu dairədən Əli Məsimli deputat seçilib) 76 saylı Lənkəran-Astara seçki dairəsi (bu dairənin deputatı Ziyafət Əsgərovdur) və 69 saylı Cəlilabad-Masallı-Biləsuvar seçki dairəsi (Fəzail İbrahimli) ləğv ediləcək. Partiya sədri iddia edib ki, Sumqayıtda 2, Abşeronda isə 3 yeni seçki dairəsi yaradılacaq.

İlqar Məmmədov dəyişikliklərin ölkə daxilindəki əhali köçü ilə bağlı olduğunu bildirib. Məlumata görə, ləğv edilən dairələrə daxil olan seçki məntəqələri qonşu dairələr arasında bölünəcək.

"Bunları haradan bilirik? Sözügedən o 3 dairədə partiyamızın təqdim etdiyi Dairə Seçki Komissiyası üzvləri var və dünən MSK bizə şifahi şəkildə onların yerinə yeni dairələrdə üzv təklif etməli olduğumuzu bildirdi", - o vurğulayıb.

REAL sədri Mərkəzi Seçki Komissiyasının (MSK) qərarının doğru olduğunu bildirib.

Məsələ ilə bağlı MSK ilə əlaqə yaratmaq mümkün olmayıb.

Bu rayonun icra başçısına yeni müavin təyin edildi

Naim Cahidzadə Sədərək Rayon İcra Hakimiyyəti başçısının müavini təyin edilib. Bununla bağlı müvafiq sərəncam imzalanıb. Sərəncama əsasən, Naim Cahidzadə, həmçinin Sədərək Rayon İcra Hakimiyyəti başçısının vəzifələrini icra edəcək.

Qeyd edək ki, Naim Cahidzadə bu təyinatadək Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının İqtisadiyyat şöbəsinin müdiri vəzifəsində çalışıb.

Sədərək Rayon İcra Hakimiyyətinin başçısı Mahirə Adnayeva bir neçə gün əvvəl tutduğu vəzifədən azad edilib.

Metro işçilərinin yüksək bal toplamış övladları mükafatlandırıldı

"Bakı Metropoliteni" QSC-nin Metropoliten İşçiləri Həmkarlar İttifaqında (MİHİ) ali məktəblərə yüksək balla qəbul olmuş metropolitençi övladları və onların valideynləri ilə görüş keçirilib.

Qeyd edək ki, builki qəbul imtahanlarında Bakı Metropoliteninin 4 əməkdaşının övladı 600 bal həddini keçərək ölkənin qabaqcıl universitetlərində təhsil almaq imkanı qazanıb.

Depolar üzrə iş departamentinin texnoloqu İrina Kuramşinanın oğlu Dmitri Kuramşin 660,1 balla Azərbaycan Fransız Universitetinin Kompüter elmləri fakültəsinə, Tunel qurğuları xidmətinin mühəndisi Səfurə Namazovanın qızı Ayan Namazlı 657 balla Azərbaycan Tibb Universitetinin Tibb fakültəsinə, tunel fəhləsi Samir Mənsurovun oğlu Elnur Mənsurov 647,7 balla Azərbaycan Fransız Universitetinin Neft-qaz fakültəsinə, Nəqliyyat və xüsusi texnika departamentinin avtomotonəqliyyat kolonunun operatoru Qabil Əliyevin övladı Ramin Əlizadə 602,7 balla Daxili İşlər Nazirliyinin Polis Akademiyasına daxil olublar.

YENİ MÜSAVAT
N 164 (8300) 15 sentyabr 2023

Bakının 4 cümləlik Donbas bəyanatına Rusiyanın demarşı - bundan sonra nə olacaq?

Müttəfiqlik bəyannaməsində "Rusiya hansısa ərazini işğal edəcəksə, Azərbaycan onu tanımalıdır" deyə bir bənd yoxdur; Moskvanın bu qədər qəzəbinin daha hansı səbəbləri ola bilər...

Azərbaycan Xarici İşlər Nazirliyinin Rusiyanın "yeni regionlarında" "seçkilər"lə bağlı bəyanatı Moskvanın xoşuna gəlməyib. Ona görə də Bakıya diplomatik demarş elan edib. Bu demarş Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarovanın dili ilə səsləndirilib.

"Azərbaycan tərəfi qarşısında diplomatik xətt boyunca demarş həyata keçirilib. Biz bununla bağlı hər şeyi ifadə etmişik" - sitat. Onun sözlərinə görə, bu cür bəyanatlar qəbuledilməzdir və müttəfiqlik xarakterinə uyğun deyil: "Biz ondan çıxış edirik ki, Bakı ölkəmizin ərazi bütövlüyü məsələsinə öz ərazi bütövlüyünə yanaşması kimi həssaslıq göstərsin". Görün hansı dövlət müttəfiqliyə sədaqətdən dəm vurur. O ölkə ki ordusu 10 noyabr sənədinin ruhuna uyğun olmayan hərəkətləri Qarabağda üç ildir davam etdirir - erməni separatizmini mühafizə edir, rus bayrağı sancılmış tank öndə gedərək terrorçuların döyüş postlarına silah daşınmasında müşayiətçi rolundadır, Xankəndidə qondarma "rus icması" yaradır, rus mərkəzi açır, Xocalıda pravoslav kilsəsi tikir, Vardanyan adlı quduzu ərazilərimizə göndərir və s.

Halbuki həmin müttəfiqlik bəyannaməsində qeyd olunur ki, Rusiya və Azərbaycan separatizmə qarşı birgə mübarizə aparmalıdır. Moskva Bakıya bu problemə son qoymaqda birgə dəstək vermək əvəzinə, separatizmə hamilik edir. İkincisi, dünya Ukraynanın ərazi bütövlüyünü tanıyır və heç il yarım deyil ki, Xerson, Zaporojye, Donetsk və Luqansk işğal altındadır. Üstəlik, Rusiya özünə birləşdirdiyi bu ərazilərə hələ tam kontrol edə bilmir. Misal üçün, Xerson vilayətinin inzibati mərkəzi olan Xerson şəhəri Ukrayna ordusunun nəzarətindədir, Luqanskın Liman şəhəri haqda da eyni sözləri söyləmək olar, həmçinin ötən həftələrdə Ukrayna lideri Volodimir Zelenski Donetskə səfər etmişdi. Yəni bu necə işğal və ilhaqdır ki, bütövlükdə məsələ bitməyib. Bundan başqa, dünyanın elə ölkəsi yoxdur ki, Ukraynanın ərazi bütövlüyünü tanımasın, Suriya, Şimali Koreya, Eritreya kimi ölkələr istisna... Hətta Rusiyanın müttəfiqi Çin də rəsmi Kiyevi bu məsələdə dəstəkləyib. Eyni zamanda bugünlərdə Qarabağdakı qondarma seçkiləri tanımadığını həm Ukrayna XİN, həm ABŞ Dövlət Departamenti, həm Avropa İttifaqı, eləcə də Britaniya və digər ölkələr elan etdilər. Rəsmi Bakı bunun qarşılığında rus ordusunun işğalı altındakı Ukrayna ərazilərindəki saxta seçkiləri necə legitim hesab edə bilərdi? Bu elə Xankəndidə 23 nəfər təlxəyin bir yerə yığışıb özünə "prezident" seçməsini dolayısı ilə legitimləşdirmək deyilmi?

Qeyd edək ki, söhbət Azərbaycan XİN-in sentyabrın 9-da Ukraynanın işğal altındakı torpaqlarda, Rusiyanın isə rəsmi olaraq öz ərazisi hesab etdiyi regionlarda yerli idarəetmə orqanlarına keçirilən "seçkilər"dən gedir. Azərbaycan XİN-in bəyanatı cəmi dörd cümləyə sığıb: "Azərbaycan və Ukrayna bir-birinin suverenliyini və ərazi bütövlüyünü tanıyır və dəstəkləyir. Bundan irəli gələrək, Azərbaycan Ukrayna ərazisində bu dövlətin konstitusiyasına və qanunvericiliyinə uyğun şəkildə keçirilən istənilən seçkinin legitim ola biləcəyini bəyan edir. Azərbaycanın bu prinsipial mövqeyi beynəlxalq hüququn dövlətlərin suverenliyinə aid olan hüquqlara hörmətlə bağlı universal şəkildə tanınmış norma və prinsiplərinə əsaslanır. Bu meyarlara cavab vermədiyi üçün Ukraynanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin bir hissəsində keçirilən son "seçkilər"in ümumiyyətlə heç bir qanuni qüvvəsi yoxdur".

Bununla belə, Zaxarova "Bakıya diplomatik demarş elan edib" dedikdə konkretləşmə aparmayıb, amma o anlama gəlir ki, həm diplomatik, həm hökumət kommunikasiyaları vasitəsilə Azərbaycan XİN-in bəyanatına etiraz edilib. Azərbaycan ilk dəfə deyil ki, Ukraynanın ərazi bütövlüyünü tanıdığını elan edir, amma bu dəfə konkret regionda Rusiyanın keçirdiyi "seçki"lərlə bağlı mövqeyi Moskvanı aşkar qıcıqlandırıb. Azərbaycan Rusiyanın rəsmi olaraq ərazi bütövlüyünü tanıyır, amma yeni regionları çərçivəsində deyil... Rusiyanın ən yaxın müttəfiqi Belarusun belə yeni regionları onun ərazisi kimi rəsmən tanıdığı haqda mövqeyi yoxdur. O halda, Rusiyanın bu qədər qəzəblənməsinin yəqin ki, başqa səbəbləri də var...


Bu hansı səbəblər ola bilər? Digər yandan, elə həmin Rusiyanın Ermənistana dəstəyi sayəsində onillər boyunca işğala məruz qalmış Azərbaycanın dünyanın hər hansı bir nöqtəsindəki işğala haqq qazandırması məntiqdən kənar olar.

Sualımızı cavablandıran **professor Qabil Hüseynli** "Yeni Müsavat"a qeyd etdi ki, Rusiya bütün ölçüləri itirib, beynəlxalq hüququn normalarına hörmətsizliyi şəkərə çevirib. Q.Hüseynli vurğuladı ki, Rusiyanın Ukraynanın ərazi bütövlüyünə qəsd etməsi, işğal etdiyi torpaqlarda saxta seçkilər keçirməsi nə dünya, nə Azərbaycan tərəfindən qəbul edilir. "Bakı bu "seçki"ni niyə tanımalıdır ki, axı özümüzün də oxşar problemimiz var?! Belə yalan-palan seçkilər qeyri-legitimdir. Az qala bütün dünya belə hərəkət edib, Moskva bundan nəticə çıxarmaq əvəzinə, bizim müttəfiqlik borcumuzu yerinə yetirmədiyimizi iddia edir. Müttəfiqlik yaxşı bir məsələdirsə, Qarabağdakı oyuncaq seçkilər haqda niyə susursan? Niyə separatçıları qışqırdıb Azərbaycanın üzərinə göndərirsən? Kremlin bu yanaşması Azərbaycana hədyanla yanaşı, beynəlxalq hüquq normalarına əməl etməməkdir, ona görə də qətiyyən rəncidə olmağa dəyməz", - deyə professor bildirdi.

Demokratiya və İnsan Hüquqları Komitəsinin sədri Çingiz Qənizadə bildirdi ki, Moskvada imzalanmış müttəfiqlik bəyannaməsində Rusiya hansısa ərazini işğal edəcəksə, Azərbaycan onu tanımalıdır deyə bir bənd yoxdur: "Bu baxımdan, işğal edilən ərazilərdə keçirilən saxta seçkilər tanınmayacaqdı. Biz Ukraynanın ərazi bütövlüyünü tanıyırıq, bundan sonra da tanıyacağıq. Rusiyanın xoşuna gəlməsə də, bunu bizdən beynəlxalq hüquq tələb edir". **Hüquq müdafiəçisi bildirdi ki, Moskva separatizmi 30 ildir qorumaqdadır:** "Rusiya Minsk Qrupunda həmsədr ölkə ola-ola Xankəndidə separatçıları himayə edib. Vladivostokda keçirilən iqtisadi forumda Putinin Laçın, Kəlbəcər və Dağlıq Qarabağ barəsində dedikləri də bu mənada aydın təsəvvürlər yaradır. Deməli, Rusiyanın Azərbaycan torpaqlarını parçalayıb Ermənistana vermək niyyəti olub, lakin dövlət rəhbərliyimiz bununla razılaşmayıb. Ona görə də biz Rusiyanın işğal etdiyi ərazilərdə, Ukraynadan qopardığı torpaqlarda keçirdiyi saxta seçkiləri tanıya bilmərik". **Ç.Qənizadənin fikrincə, müttəfiqlik bəyannaməsində Rusiyanın işğal etdiyi ərazilərdə keçirilən seçkiləri qəbul etmək öhdəliyimiz yoxdur, bu, Azərbaycanın demokratik imicinə də zərbə olardı və beynəlxalq tənqidlərə məruz qalardıq:** "Rusiyanın Ermənistan-Azərbaycan münasibətlərinin nizamlanmasında ədalətli, səmimi mövqeyini hələ ki görmürük".

Siyasi şərhçi Turan Rzayevin sözlərinə görə, Putin işğal edilən vilayətlərin Rusiya Federasiyasına qəbul edilməsi haqqında sazişləri 2022-ci ilin noyabrında imzalayıb, yəni rəsmi Bakının bu vilayətləri Rusiya ərazisi kimi qəbul etmək öhdəliyi yoxdur: "43 maddəlik bəyannamənin bir maddəsində belə Rusiyanın işğal edəcəyi ərazilərin Azərbaycan tərəfindən qəbul ediləcəyi barədə maddə yer almayıb. Zaxarovanın unutduğu əsas məsələ isə Azərbaycanın Rusiya ilə müttəfiqlik xarakterinə uyğun olaraq bu günə qədər Qərbin, ABŞ-ın sanksiyalarına qoşulmamasıdır. Müqayisə üçün deyim ki, Ermənistan sanksiyalara qoşulduğu kimi həm də Roma Statutunu qəbul edərək Rusiya prezidentinin bu ölkəyə səfərini hüquqi olaraq bloklayıb. Azərbaycan bunu da etməyib. Azərbaycan və Ukrayna bir-birinin ərazi bütövlüyünə hörmətlə yanaşır".

❑ **Emil SALAMOĞLU**
"Yeni Müsavat"



"Ermənistan tərəfinin siyasi avantürası..."

XİN-dən ötən ilin sentyabr hadisələri haqda bəyanat

"Ötən ilin sentyabr ayında, eləcə də 2021-ci ilin may və noyabr aylarında Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə qarşı törədilmiş növbəti təxribatlara cavab olaraq ölkəmizin gördüyü tədbirlərin nəticələrinin Ermənistan ərazilərinin işğalı kimi təqdim edilməsi Ermənistan tərəfinin siyasi avantürasının tərkib hissəsidir".

Bunu Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə Ermənistan Xarici İşlər Nazirliyinin yaydığı bəyanata dair şərhində bildirib.

O qeyd edib ki, Azərbaycanın suveren torpaqlarını 30 ilə yaxın müddətdə işğal altında saxlayan, 2020-ci il Vətən müharibəsinin nəticələrinə baxmayaraq, Azərbaycana məxsus 8 kəndi Azərbaycana təhvil verməyən, üçtərəfli bəyanata zidd olaraq, erməni silahlı qüvvələrini Azərbaycan ərazilərindən hələ də çıxarmayan, davamlı hərbi təxribatlar törədən Ermənistanın Azərbaycanı işğalda təqsirləndirməsi saxtakarlıq nümunəsi olmaqla yanaşı, reallıqların təhrif edilməsidir.

"Müharibə və hərbi əməliyyatlar zamanı beynəlxalq humanitar hüququn pozuntularını müvafiq olaraq araşdıran, bu kimi halların törədilməsində şübhəli bilinən şəxslərlə bağlı istintaq aparan Azərbaycandan fərqli olaraq, Ermənistan tərəfinin Xocalı soyqırımı daxil, azərbaycanlılara qarşı insanlıq əleyhinə törətdiyi cinayətlərdən fəxrlə danışması hər kəsə məlumdur", - XİN rəsmisi vurğulayıb.

A.Hacızadə bildirib ki, Azərbaycanın Qarabağ bölgəsinə istinadlarında Azərbaycanın suverenliyi və ərazi bütövlüyünü şübhə altına alan Ermənistan tərəfinin bölgədə qüvvə toplamasını ört-basdır etməsi və hər an törədə biləcəyi təxribat səylərindən fikir yayındırmaq cəhdləri ciddi təhdid mənbəyidir:

"Bölgədə sülh və sabitliyin əsas şərti Ermənistanın Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə qarşı sözdə və əməldə iddialardan əl çəkməsi, bütün erməni silahlı qüvvələrini ərazilərimizdən çıxarması, revanşist siyasətə və əməllərə son qoymaqdır".

YENİ MÜSAVAT
N 164 (8300) 15 sentyabr 2023



"Laçın postunda ermənilərə Azərbaycan pasportu verilməlidir"

Qüdrət Həsənquliyev: "Humanitar yardımın sivil qaydada çatdırılmasını istəmirlərsə, o halda Yaşma Xüsusi Təyinatlıları tanklarla çatdırar"

Rusiya Prezidenti Vladimir Putinin Qarabağla bağlı sirr pərdəsini götürməyə başlaması birmənalı qarşılanmayıb. Məlum oldu ki, 10-15 il ərzində Azərbaycanın iki rayonunun, həmçinin Qarabağın yuxarı hissəsinin Ermənistanın tərkibində qalması təklifi masada olub, İrəvan isə bundan imtina edib. Deputat, BAXCP sədri Qüdrət Həsənquliyevlə müsahibəmizə məhz bu məsələdən başladıq.

- Qüdrət bəy, Rusiya prezidentinin Qarabağla bağlı son açıqlamalarını necə şərh edərdiniz?

- Əvvəllər onsuz da bu məsələ gündəmdə idi ki, 5 rayon qaytarılır, 2 rayon - Laçın və Kəlbəcər Ermənistanla Azərbaycan arasında sülh sazişi imzalanandan, Qarabağın statusu müəyyən olunandan sonra qaytarılır. İndi kimsə deyirsə ki, yox, belə söhbət olmayıb, bu, doğru deyil. Həm də, açığı, Putinin son açıqlamasındakı əsas məsələ ondan ibarət idi ki, Azərbaycan Qarabağda heç bir etnik təmizləmə siyasəti aparmaq fikrində deyil, ermənilərin reinteqrasiyasının həyata keçirilməsinin tərəfdarıdır və Ermənistan ərazi bütövlüyümüzü tanıdığı üçün status məsələsi də bitmiş hesab oluna bilər. Putinin açıqlamasının məğzində duran bu idi. Niyə o, keçmişi xatırlatdı ki, 5+2 planı var idi? Əslində bu, Paşinyana təzyiq məqsədi daşıyır. Ayın 17-sində İrəvanda mer seçkiləridir və Putin də görür ki, Paşinyanın son addımları Rusiyanın Ermənistandan çıxarılmasına yönəlib. Putinin açıqlamasında bizə lazım olan məqam odur ki, o, bundan sonra statusla bağlı müzakirələrin yersiz olduğunu söylədi və bunun bütün günahını Ermənistan rəhbərliyinin üzərinə qoydu. Rusiya Ermənistanın daxilində gərginlik, qarşıdurma yaratmaq istəyirsə, çox yaxşı. Mən baxıram, bizdə bəzi adamlar, xüsusilə də Qərbin yönləndirdiyi insanlara sanki sərf edir ki, Qarabağın işğal altında qalan hissəsini azad etmək üçün Azərbaycan əsgəri vuruşsun,çoxlu qan tökülsün. Yaxşı olar ki, işğalçı ölkənin vətəndaşları bir-birini qırsın, biz də itki vermədən, yaxud az itki ilə Xankəndi və ətrafında dövlət suverenliyimizi bərpa edək. Əgər hansısa məsələdə Rusiyanın maraqları ilə Azərbaycanın maraqları üst-üstə düşürsə, bundan narahat olmağa dəyməz. Xaricdən yayımlanan internet TV-lərdən ermənipərəst dairələrin tapşırıqları ilə hay-həşir salanlara gərək ictimaiyyət əhəmiyyət verməsin. Putinin son açıqlaması Azərbaycan dövlətinin və xalqının maraqlarına cavab verir.

- Bu, həm də Rusiyanın öz hərbi kontingentini daha 5 il müddətinə bölgədə saxlamağa hesablanan gediş deyilmi?

- Sizə açıq deyim, əgər biz qansız, bir əsgərimizi belə itirmədən Qarabağ üzərində tam suverenliyimizi 2025-ci ilədək bərpa edəcəyiksə və Rusiya bu işdə pozitiv rol oynayacaqsa, doğrudan da əsgərimiz Xankəndinə girəcəksə, orada dövlət suverenliyi bərpa olunacaqsa, ermənilər üçün bir müddət də əlavə təminat olaraq, Rusiya hərbi kontingentinin orada qalması qorxulu və təhlükəli deyil. Bu olmayacaqsa, 2025-ci ildən sonra Rusiya sülhməramlılarının orada qalma müddəti uzadılmamalıdır.

- Rusiya prezidenti, həmçinin digər rəsmi şəxslər davamlı şəkildə onu da bildirirlər ki, Ermənistanla düşmən deyillər. Hətta Putin Paşinyanla mütəmadi əlaqələrinin olduğunu söylədi. Ola bilərmi ki, bu gərginlik, sadəcə, ABŞ-Ermənistan hərbi təlimləri kontekstində ortaya çıxıb və sonradan səngiyəcək, Kreml İrəvanla dostluq, strateji müttəfiqlik münasibətlərini əsas götürərək Azərbaycana qarşı növbəti dəfə aqressiyasını artırsın?

- Əvvəla, Paşinyanla Putinin münasibətlərinin düzələcəyini düşünmürəm. Ona görə ki, Paşinyan Qərbə bağlı bir insandır. Rusiya da Qərblə müharibə vəziyyətindədir. Baxın, ABŞ-Ermənistan hərbi təlimləri nə vaxta təsadüf edir? İrəvanda sentyabrın 17-sində mer seçkisidir. Putin də çox gözəl başa düşür ki, bu hərbi təlimlər əslində Paşinyana açıq dəstək məqsədi daşıyır. Həm də ona əlavə təminatdır ki, birdən seçki günü və ya seçkidən sonra ara qarışsa, ABŞ hərbçiləri Paşinyanın təhlükəsizliyini təmin eləyə, dövlət çevrilişi cəhdinin qarşısının alınmasında iştirak edə, ən pis halda Paşinyanı ölkədən çıxara bilərlər. Ona görə də təlimlər İrəvanın yaxınlığında keçirilir. Putinin açıqlaması revanşist ermənilər Paşinyanın üstünə qaldırmaq, həm də reallığı onlara qəbul etdirməyə hesablanıb.

- Amma deyək ki, sabah Paşinyan devrildi və Qarabağ separatçılarının başına təyin olunan Şahramanyan kimisi, rus təbəəsi Ermənistan rəhbərliyinə gətirildi. O halda Rusiyanın Azərbaycana münasibətini necə təsəvvür edirsiniz?

- Orada rusyayönümlü hakimiyyətin olması ermənilərə yeni reallıqları dəyişmək imkanı yaratmayacaq. Hər bir müqayisə qüsurlu olsa da öz yaxın tariximizə baxaq. 1993-cü ildə Əbülfəz Elçibəy qiyam nəticəsində hakimiyyətdən getdi, Rusiyanın dövlət siyasətini incəliklərinə qədər bilən Heydər Əliyev hakimiyyətə gəldi, amma nə dəyişdi? Qarabağ ətrafındakı daha bir neçə rayon işğal olundu, atəşkəs haqqında Bişkek protokolunu imzalamaqdan başqa yolumuz qalmadı. 44 günlük savaşdan sonra da elə reallıqlar yaranıb ki, artıq onu geri döndərmək mümkün deyil. Baş verənlərin günahını yıxacaqlar Paşinyanın üzərinə və bununla da məsələ bitmiş olacaq. Axı dövr də dəyişib, Rusiyanın Azərbaycan və Türkiyə ilə normal münasibətlərə ehtiyacı var. Azərbaycan-Türkiyə birliyi regionda ciddi faktora çevrilib. Bununla Qərb də, Rusiya da, İran da, digərləri də hesablaşmalıdır. Türkiyə regionun böyük dövlətidir, həm əhalisinin sayına, həm hərbi gücünə, iqtisadi potensialına görə. Türkiyənin Qarabağ məsələsində daha birmənalı mövqe ortaya qoyması bizim üçün əlavə üstünlüklər yaradır. Ona görə də sözün doğrusu, mən dediyiniz təhlükədən narahat deyiləm. Bu yaxınlarda da müsahibələrimin birində demişdim, heç kim təminat verə bilməz ki, gələcəkdə regionda formalaşacaq geosiyasi vəziyyət Azərbaycan üçün indikindən daha əlverişli ola bilər. Ona görə də Qarabağ məsələsi indi həll olunmalıdır.

- Rusiyanın yük maşını Xankəndinə keçdi, amma Azərbaycanın iki maşını hələ də yolun açılmasını gözləyir. Eyni zamanda Rusiyadan Laçın yolunun açılmasına yönəlik mesajlar gəlir. Hesab olunur ki, Rusiya TIR-ı Xankəndinə Ağdamdan gedibsə, avtomatik şəkildə Laçın yolu da yük maşınlarının üzünə açılmalıdır. Bu məsələlərin perspektivini necə görürsünüz?

- Onlar hesab edirlər ki, Azərbaycan geri çəkilməlidir. Ağdam yolu ilə bir maşın buraxırlar ki, baxın da, sizi də çox pərt eləmirik, indi Laçın yolunu açın. Elə görünməsin ki, Laçın yolunu açmağı biz sizə məcbur elədik. Əslində Xankəndinə bir yük maşınının buraxılması oyunbazlıqdır.

- Rusiya tərəfindən?

- Həm Rusiya, həm də ermənipərəst Qərb dairələri tərəfindən. Ermənistan məsələsində Fransa, Rusiya və ABŞ əvvəllər işğalı açıq və dolayısı ilə dəstəkləyib. Düşünüblər ki, Azərbaycan günün birində məcbur olub bu reallıqla barışacaq, həm də onlardan asılı olaraq qalacaq. Sadəcə, Paşinyanın hakimiyyətə gəlməsi regionda vəziyyəti dəyişdi. Həm də görünür, Rusiyanın artıq 2020-ci ildə Ukrayna ilə bağlı hansısa planları var imiş və o, 44 günlük savaşda Ermənistan tərəfdən döyüşməməklə Azərbaycanın, xüsusilə də Türkiyənin Rusiyaya qarşı açıq çıxmasına mənəvi maneələr yaratmış oldu.

Yanlış olaraq ölkəmizdə çoxları düşünür ki, Rusiya Ukraynada uduzsa, biz torpaqlarımızın qalan hissəsini rahatlıqla geri qaytara bilərik. Biz Qarabağ üzərində dövlət suverenliyini bərpa etmək üçün Ukraynada savaşın bitməsini gözləməməliyik. O zaman çoxları bizə qarşı sərt mövqe sərgiləyəcək. Rusiya müharibədə uduzsa, bu, mütləq hakimiyyət dəyişikliyinə səbəb olacaq. O zaman Qorbaçov, Yeltsin kimi birisi Qərbin dəstəyi ilə hakimiyyətə gəldi. Nə baş verəcək? Səhv etmirəmsə, 1989-cu ilin sonunda 30 konqresmen Qorbaçova müraciət etdi ki, Azərbaycanı niyə cəzalandırmırsan? Bundan sonra Qarboçov 20 Yanvarda sovet qoşunlarının Bakıya yeritdi, dinc insanlara divan tutuldu. Qərb də Qorbaçovu alqışladı, hələ Nobel sülh mükafatı da verdi. Yeltsinin vaxtında isə Qarabağ ətrafındakı rayonlar işğal olundu. ABŞ Azərbaycana sanksiya tətbiq etdi, Qarabağdakı işğalçı rejimə davamlı maliyyə yardımı ayırdı. Bu gün də Qarabağ ermənilərini dinc reinteqrasiya olunmağa çağırmırlar. Ona görə demək istəyirəm ki, sabah Rusiyada qərbyönümlü hakimiyyət olsa... Qərb həmişə ilanı Seyidəhməd əli ilə tutmaq istəyir. Rusiyanı kimin əli ilə zəiflədir? Ona qardaş Ukraynanın əli ilə. 2014-cü ildə ortaya prinsipial mövqe qoymadı ki, 1994-cü ildə imzalanmış Budapeşt Memorandumuna görə, Ukraynanın ərazi bütövlüyünə dair öhdəlik götürmüşük. Orada yazılıb ki, Ukraynanın ərazi bütövlüyünə təhlükə olarsa, onlar kömək göstərəcəklər. İndi köməyi Rusiyaya sanksiyalar tətbiq etməkdə və Ukraynaya silah-sursat verməkdə görürlər, onu da Rusiyanın hərbi potensialından artıq şəkildə göstərmirlər. Mən baxıram ki, hərdən bizimkilər deyir, yaxşı, Britaniya, Amerika bu köməyi eləməsəydi, nə olardı? Necə eləməyə bilərdi? Axı onlar aldadıb bu dövlətin nüvə silahını əlindən alıblar, onu böyük dövlətin qarşısında müdafiəsiz qoyublar. Bunların birbaşa hüquqi, siyasi, mənəvi məsuliyyətidir ki, Ukraynaya dəstək versinlər. Dediyim ki, Qərb həmişə "ilanı Seyidəhməd əli ilə tutur". Onlar bizi də daha çox Rusiyanın əli ilə cəzalandırıblar. Ona görə indi ən əlverişli vəziyyətdir ki, Qarabağ üzərində dövlət suverenliyimizi bərpa edək. Ərazi bütövlüyümüzün bərpası istiqamətində atılan ən böyük addımlardan biri 2023-cü ilin 23 aprelində Laçında dövlət sərhədimiz tam bərpa etmək oldu. İndi Daxili İşlər Nazirliyi orada post qoymalıdır.

- Laçın sərhəd buraxılış məntəqəsində?

- Bəli. Ermənistan tərəfə keçən Qarabağ sakinlərinə sual edilməlidir ki, "sən Qarabağ sakinisən?" Cavab veriləcək ki, "hə". Növbəti sual: "Sən geri qayıtmaq istəyirsən?" "Hə" cavabı olacaqsa, "onda Azərbaycanın şəxsiyyət vəsiqəsini və pasportunu almalısan. Buyur, şəkil çəkdir, qayıdanda da buradan şəxsiyyət vəsiqəni və pasportunu götürərsən". Ona görə ki, bizdə miqrasiya haqqında məcəllə Azərbaycana öz vətəndaşlarının, əcnəbilərin, vətəndaşlığı olmayan şəxslərin gediş-gəlişini tənzimləyir, dövlət sərhədini keçməyin qaydaları var. Yoxsa bunlar bizim dövləti nə sayırlar ki, istədikləri vaxt gedib-gələcəklər? Ona görə də Laçın postunda onların hamısına şəxsiyyət vəsiqələrinin verilməsinə başlanmalıdır. Bu barədə qanunvericiliyə də dəyişiklik etməliyik. Nə qədər ki, post qoymamışdıq, ora açıq qapı idi, kim istəyirdi, gedib-gəlirdi, onda belə bir ehtiyac yaranmamışdı. Amma dövlət sərhədi bərpa olunubsa, biz onları "artsax"ın verdiyi pasportla buraxa bilmərik ki, öz ərazimizdən getsinlər, ya gəlsinlər. Ona görə də şəxsiyyət vəsiqələri verilməlidir. Kim də bunu qəbul etməyəcəksə, ona deyilməlidir ki, sən geri qayıda bilməzsən. Bütün dünyada olduğu kimi...

- Ağdamdakı humanitar yüklərimiz necə, hələ də yolda gözləməlidirmi?

- Hamı bilir ki, orada işğalçı Ermənistan qondarma rejim yaradıb. Bu rejim əhalini terror qorxusu altında saxlayır. Heç vaxt sadə vətəndaşlar qorxularından deyə bilməzlər ki, biz Azərbaycana reinteqrasiya etmək, vətəndaşlığı qəbul eləmək istəyirik. Ombudsman başda olmaqla, biz hər birimiz Qarabağdakı sadə erməni vətəndaşlarımızın hüquqlarını işğalçı rejimdən qorumalıyıq. Ona görə də əgər işğalçı rejim sadə insanlara humanitar yardımın sivil qaydada çatdırılmasını istəməyəcəklərsə, o halda eybi yoxdur, bizim Yaşma Xüsusi Təyinatlıları, yaxud Daxili Qoşunlar həmin yardımı tanklarla çatdırar, nizam-intizamı və qanunçuluğu bərpa edər. Azərbaycanın növbəti bəyanatı o olmalıdır ki, əgər siz reinteqrasiya prosesinə mane olsanız, humanitar yardım tanklarla çatdırılacaq.

❑ **Elşad PAŞASOY,**
"Yeni Müsavat"

Bakının azad edilməsinin 105-ci ili - iki qardaş ölkənin qürur tarixi

Yücel Karauz: "15 sentyabr Türk dünyasının qızıl səhifəsidir"; **Fazil Mustafa:** "Hansı xalq, dövlət olsaydı, mütləq Nuru Paşaya Bakının mərkəzində abidə qoyardı"

Bakının bolşevik hərbi birləşmələri, yadelli işğalçılar və daşnak quldurlardan azad edilməsinin 105-cü ili tamam olur. Bu, Azərbaycan xalqına aid ən şərəfli tarixlərdən biridir.

105 il bundan əvvəl, 1918-ci il sentyabrın 15-də Nuru Paşanın rəhbərlik etdiyi Qafqaz İslam Ordusu və Azərbaycan Korpusu Bakıya daxil olaraq şəhəri erməni-bolşevik işğalından azad edib. Beləliklə, həm Azərbaycanın müstəqilliyi təmin olunub, həm də ermənilərin və bolşeviklərin Bakı və ətraf rayonlardakı ağalığına son qoyulub.

Bakının erməni-bolşevik işğalından azad edilməsi XX əsr Azərbaycan tarixinin ən şərəfli səhifələrindən biridir.

Möhtəşəm və tarixi qələbədən sonra Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin paytaxtı sentyabrın 17-də Gəncə şəhərindən Bakıya köçürülüb. Beləliklə, Azərbaycanda dövlət quruculuğunun əsas mərhələsinə start verilib.

Türk ordusunun Bakını bolşevik-daşnak işğalından azad etməsi şəhərdə əsl bayrama səbəb olub. Məşhur milyonçu və xeyriyyəçi Hacı Zeynalabdin Tağıyev türk ordusunun şərəfinə təntənəli ziyafət təşkil edib. Ziyafət indiki Dövlət Filarmoniyasının binasında keçirilib. Tağıyev türk ordusunun komandanı Nuru Paşaya və onun qəhrəman sərkərdələrinə hədiyyələr təqdim edib.

1918-ci il sentyabrın 15-də Bakının azad olunması Azərbaycan-Türkiyə dostluğu və qardaşlığı zəminində müstəsna əhəmiyyət daşıyan böyük hadisədir. Osmanlı qoşunları Bakının azad olunması üçün həyata keçirdikləri hərbi əməliyyatlarda 1130 şəhid verib.

Qardaş Türkiyənin hərbi dəstəyi ilə Bakının azad edilməsi Azərbaycan tarixinə daha bir zəfər gününün yazılması demək idi. Bu, eyni zamanda dahi Mustafa Kamal Atatürkün "Azərbaycanın kədəri kədərimiz, sevinci sevincimizdir!" fikrinin əyani təsdiqi idi.

Azərbaycan növbəti dəfə müstəqillik qazandıqdan sonra hər il sentyabrın 15-də təkcə Bakıda deyil, Şamaxıda, Göyçayda və digər rayonlarda ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olan türk əsgərlərinin məzarları ziyarət olunur. Hər il Şəhidlər xiyabanında şəhid türk əsgərlərinin xatirəsinə ucaldılmış "Türk Şəhidliyi" abidəsi önündə anma mərasimi keçirilir.

Millət vəkili Musa Qasımlı mövzu ilə bağlı "Yeni Müsavat"a danışıb: "15 sentyabr Azərbaycanın şərəfli tarixinin parlaq səhifələrindən biridir. Bu gün Osmanlı və Azərbaycan hərbçilərindən qurulmuş Nuru Paşa komandanlığı altında Qafqaz İslam Ordusu Bakının yadelli qüvvələrdən azad etdi. Azərbaycan xalqı və hökuməti tarixi şəhərinə, paytaxtına qovuşdu.

Bu tarix ölkəmizdə araşdırılıb, xeyli sayda məqalələr, kitablar yazılıb. Ulu öndər Heydər Əliyevin hakimiyyəti dövründə Qafqaz İslam ordusunun hərbiçilərinin şərəfinə hər bir azərbaycanlı üçün müqəddəs olan 1918-ci il mart soyqırımı qurbanlarının, 1990-cı il 20 Yanvar faciəsinin və Birinci Qarabağ müharibəsi şəhidlərinin dəfn olunduğu Şəhidlər Xiyabanında abidə ucaldılıb. Qafqaz İslam Ordusuna ucaldılan bu abidə qardaşlığın rəmzidir. Bu bizim silah qardaşlığımızın nümunəsidir. Bundan alınacaq dərslər var. Bu dərslərin ən başlıcası ondan ibarətdir ki, Azərbaycan və Türkiyə bərabər hərəkət etdikləri zaman qarşılarına qoyduğu istənilən məqsədə nail olurlar. Bu gün çox müsbət haldır ki, biz "Bir millət-iki dövlət"dən cənab Prezident İlham Əliyevin söylədiyi kimi, "tək yumruğa" çevrilmişik".

Millət vəkili Fazil Mustafa dedi ki, bu tarixin önəmi həm də odur ki, yenicə formalaşan Azərbaycan Ordusu və birlikləri Qafqaz İslam Ordusu ilə birlikdə bu prosesdə iştirak ediblər və ön cəbhədə vuruşublar: "Hətta Məhəmməd Əmin Rəsulzadə bunun diplomatik tərəfini nəzərdə tutaraq, sabahkı iradların da qarşısını almaq üçün vurğulayırdı ki, Bakını işğaldan azad edən ordunun ilk sıralarında Azərbaycan Ordusu, Azərbaycan bayrağı olmalıdır ki, sabah Bakının işğaldan azad etmək məsələsində Azərbaycan hökumətinin adı daha çox hallansın. Lakin bir tarixi gerçəklik var ki, Türk Ordusunun yardımı olmasaydı, bunu etmək mümkün deyildi. Beləliklə, 15 sentyabr bizim üçün şərəfli tarixdir və bu tarixin yüz illiyini Azərbaycan Prezidenti və Türkiyə Prezidenti tərəfindən çox yüksək səviyyədə qeyd olunub.

Lakin nədənsə Azərbaycanda Bakının azad olunmasında böyük rolu olan Nuru Paşanın şərəfinə hansısa bir addımın atılması əngəllənir. Düşünmürəm ki, bu bilməməzlikdən irəli gəlir. Məsələn, hansı xalq, dövlət olsaydı mütləq Nuru Paşaya Bakının mərkəzində abidə qoyardı. Hansı millət ki, öz qədirşünaslığını göstərmək istəyir, onun adını hərbi məktəblərə və yaxud digər yerlərə verməli idi. Bu addımları atmamağın bəhanəsi yoxdur və bizim bir nöqsanımız, milli qüsurumuzdur. Çünki bizə bu azadlığını bizə canı, qanı, 1130 türk əsgərinin şəhadəti bahasına bəxş etmiş insanlara biz bir məzar abidəsi qoymaqla kifayətlənməməliyik. Onun müzəffər komutanına mütləq dəyər verməliyik. Buna görə də biz bu məsələdə daha qədirşünaslıq göstərməyə borcluyuq".

Ehtiyatda olan türkiyəli general Yücel Karauz da qeyd edib ki, 15 sentyabr həm Azərbaycan, həm də Türkiyə tarixinə qızıl hərflərlə yazılmış tarixdir: "15 sentyabr tarixi təkcə Bakının işğaldan azad edilməsi deyil, həm də Azərbaycanın dövlətçilik tarixi, Ordu quruculuğu baxımından da çox önəmlidir. Həmçinin Türkiyə-Azərbaycan qardaşlığının təməllərini qoyan ən bariz nümunələrdən biridir. 105 il öncə Osmanlı İmperiyası artıq çökmək, parçalanmaq üzrə idi və Birinci Dünya müharibəsində 7 cəbhədə savaşırdı. Lakin Osmanlı İmperiyası çökməsinə rəğmən Türk dünyası, türk qardaşları ilə əlaqəni heç bir zaman kəsməmişdir. Xüsusən də Ənvər Paşa Türk dünyası, Turan sevdalısı olaraq ermənilərin törətdikləri zülmlərə, Azərbaycanın uğradığı haqsızlıqlara dayana bilməyərək, öz qardaşı Nuru Paşanı görəvləndirərək, Komutan Heyəti yaratdı. Halbuki həmin zaman Osmanlı ordusu 7 cəbhədə savaşırdı və Ənvər Paşa mümkünsüzlüyü mümkün edərək, həmin Komutan Heyətini yaratmışdı. Beləliklə, Komutan Heyəti cəbhədən çəkilərək, Gəncəyə gəldilər. Orada təşkilatlanma fəaliyyəti yayıldı və nəticədə Azərbaycan Korpusu yaradıldı. Çox qısa bir zamanda, 15 may-15 sentyabr ərzində təlimlər həyata keçirərək, sentyabrın 15-i səhəri Bakını işğaldan azad etdilər. Bakının azad edilməsi təkcə Azərbaycan üçün deyil, həm də Türk dünyası, Türkiyənin Türk dünyası ilə bağlılığı baxımından tarixi bir vəzifə idi. Bu baxımdan, deyə bilərik ki, 15 sentyabr çox böyük tarixi əhəmiyyətə malikdir.

Təbii ki, Birinci Dünya müharibəsi dövründə Osmanlı İmperiyasının yenilməsi, Mudros barışığı imzalanması nəticəsində Qafqaz İslam Ordusu geri dönmək məcburiyyətində qaldı. Əslində bundan sonra da Qafqaz İslam Ordusunun Azərbaycanda missiyası bitməmişdi, ordunun bəzi hissəsi Azərbaycan korpusunda və Azərbaycan Ordu quruculuğunda fəaliyyətini davam etdilər.

Məlum olduğu kimi, Osmanlı ordusu Azərbaycanda 1130 şəhid verib. Bu şəhidlər Azərbaycanın müxtəlif yerlərində dəfn olunub, o cümlədən Naxçıvanda. Azərbaycan xalqı bu günə qədər həmin şəhidlərin məzarını əmanət kimi saxlayıb, 70 il sürən rus-bolşevik iqtidarından qoruyub. Türkiyə, Anadolu türkləri olaraq Azərbaycan xalqının bu qədirbilənliyinə görə minnətdarıq. 15 sentyabr həmçinin Şuşa Bəyannaməsi, Qarabağ Zəfəri kimi bir zəfərdir və Türk dünyasının qızıl səhifəsidir.

Bütün şəhidlərimizi rəhmətlə anıram".

❑ **Xalidə GƏRAY**
"Yeni Müsavat"





Türkiyə MN-dən Ermənistana çağırış

Hazırda Türkiyə Silahlı Qüvvələri Azərbaycan Ordusunun modernləşdirilməsi və təlimi, erməni işğalından azad edilmiş rayonlarda mina və partlayıcı qurğuların axtarışı və zərərsizləşdirilməsi istiqamətində dəstəyini davam etdirir.

Bu barədə Türkiyə Milli Müdafiə Nazirliyinin həftəlik hesabatında bildirilib.

"Qafqaz regionunun sülh şəraitində gələcəyə doğru möhkəm addımlar atacağına inanırıq. Ermənistanın uzadılmış sülh əlini tutacağına ümid edir, Azərbaycan və Ermənistan arasında daimi sülhün bərqərar olması üçün səmimi səyləri dəstəklədiyimizi bir daha bildiririk.

Kədərdə, sevincdə birləşdiyimiz azərbaycanlı qardaşlarımızı "iki dövlət, bir millət" anlayışı ilə onların haqlı işlərində indiyə qədər etdiyimiz kimi, bundan sonra da bütün imkanlarımızla dəstəkləyəcəyik", -açıqlamada deyilir.

Qeyd edək ki, nazirlik regional sülh və sabitliyə aparan yolun hərtərəfli sülh sazişinin imzalanmasından keçdiyini vurğulayıb.

Xüsusi təyinatlıların birgə təlimi keçiriləcək

8-15 sentyabr tarixlərində Türkiyə-Azərbaycan İkitərəfli SAT-SAS təlimi keçirilir. Bu barədə Türkiyə Milli Müdafiə Nazirliyi məlumat yayıb.

Bundan əlavə, 18-30 sentyabr tarixlərində Türkiyə və Pakistan "Əbədi Qardaşlıq" - II Təlimi, bundan başqa, Azərbaycan və Türkiyə xüsusi təyinatlılarının iştirakı ilə "Qafqaz Qartalı" təlimləri keçiriləcək.

"Cənubi Qafqazdakı sabitlik üçün Ermənistanın Azərbaycan tərəfindən uzadılan sülh əlini tutmasını arzu edirik". Bunu isə Türkiyə Milli Müdafiə Nazirliyinin sözçüsü Zeki Aktürk deyib.

O bildirib ki, Türkiyə Azərbaycan və Ermənistan arasında sülhün təmin olnuması üçün səmimi səylərini davam etdirir. "Azərbaycanlı qardaşlarımızın haqlı mübarizələrində onların yanında olmağa davam edəcəyik", - Aktürk qeyd edib.

Sözçü deyib ki, Ermənistanın bölgədə təkcə atəşkəsi pozması deyil, həm də səngərlər qazması, yeni mövqelərdə istehkamlar inşa etməsi müşahidə olunur.

YENİ MÜSAVAT
N 164 (8300) 15 sentyabr 2023

İranın dinc qalmayan dili - Tehranın üslubu düzəlmir

İran "sərhədlərin dəyişdirilməsini qəbul etmirik" deyəndə, daha çox Zəngəzur dəhlizi ilə bağlı mövqeyini ifadə edir

İran hesab edir ki, Ermənistanla Azərbaycan arasında hərbi qarşıdurma yaxın gələcəkdə baş verməyəcək. Bunu İranın müdafiə naziri Məhəmməd Rza Aştiani deyib. "Biz Qafqazda müharibə olmayacağına inanırıq və bu məsələdə İran İslam Respublikasının mövqeyini açıq şəkildə bəyan etmişik", - deyə "Tasnim" agentliyi onun sözlərini sitat gətirir: "Biz dövlətlər arasında sərhədlərin dəyişdirilməsini qəbul etmirik, lakin yaxın gələcəkdə bölgədə ciddi qarşıdurma olmayacağına inanırıq".

Yada salaq ki, İran "sərhədlərin dəyişdirilməsini qəbul etmirik" deyəndə, daha çox Zəngəzur dəhlizi ilə bağlı mövqeyini ifadə edir.

İran Xarici İşlər Nazirliyinin sözçüsü Nasir Kənani isə mətbuat konfransında deyib ki, İran şimal qonşuları ilə ortaq sərhədlərinin təhlükəsizliyinə böyük əhəmiyyət verir. O, həmçinin qeyd edib ki, İran beynəlxalq səviyyədə tanınmış sərhədlərdə istənilən dəyişikliyə qarşıdır. XİN rəsmisi bir ovuc erməni toplumunun hüquqlarının qorunmasından da dəm vurub.

İrana Qarabağdakı ermənilərin hüquq və təhlükəsizliyinin konkret çərçivədə təmin edilməsinin nə dəxli var? Məgər Qarabağ İran sərhədindədir? Üstəlik, İran 30 milyon azərbaycanlı da daxil, ölkəsində "xalqlar koloniyası" yaradıb, hansı haqla başqa ölkədə məskunlaşmış toplumun qayğısını çəkir?



Sabiq maliyyə naziri, iqtisadçı alim Fikrət Yusifov İran tərəfin səmimiyyətinə inanmır: "Çox təəssüf ki, İran rəsmilərinin verdikləri bəyanatların ciddiliyini qəbul etmək mümkün deyil. Onların sözlərinə güvənmək mümkün deyil. Azərbaycan hakimiyyəti bu dövlətin xarici siyasətindəki "incəlikləri" çox yaxşı bilir.

Baxın, İran Qarabağ torpaqlarımızın erməni işğalı altında olduğu dövrdə bizə qarşı nə qədər rüsvayçı oyunlar oynadı? Otuz il ərzində Qarabağda işğal altında olan yaşayış məntəqələrimiz məhz yüzlərlə İran şirkətləri tərəfindən talan edilib. Bunu İran rəsmiləri bilmirdimi? Əksinə, bu şirkətlərin fəaliyyətini stimullaşdırırdılar. İran 44 günlük Qarabağ savaşında torpaqlarımızın işğaldan azad olunmasını həzm edə bilmirdi. Münaqişə illərində və ondan sonra Qarabağdakı erməni separatçılarına silah-sursat, yanacaq daşıyan da məhz İran idi. Onlar bu gün də eyni əməllərlə məşğuldurlar.

İran rəsmiləri davamlı olaraq sərhədlərin dəyişməsinin mümkünsüzlüyündən danışırlar. Azərbaycanın iki yerə bölünməsinin müəlliflərindən biri olan bu molla dövləti indi beynəlxalq ədalətdən, beynəlxalq normalardan danışır. Gəlin özümüzü aldatmayaq, İran əhalisinin 70%-dən çoxu bilavasitə Azərbaycan türkləridir. Bu qədər soydaşımızın bütün hüquqlarını yüz illərdir ki, ayaqlar altına atmış bir dövlətin Qarabağ torpaqlarımızda yaşayan və əksəriyyəti separatçı olan bir ovuc erməni toplumunun hüquqlarının qorunmasından dəm vurması ölçüyə gəlməyən bir həyasızlıqdır.

Son günlər Ermənistanla Azərbaycan arasındakı qarşıdurmada bizə qarşı mövqeyini bir qədər "yumşaldan" İran dövlətinin bu addımları da səbəbsiz deyil. Ermənistan bölgəyə ABŞ hərbiçilərini gətirib və onların iştirakı ilə bölgədə təlimlər keçir. Qardaş bildiyi Ermənistanın bu addımları İranı bərk əndişələndirib. İran ABŞ-ın hər hansı bir formada onun sərhədlərinə yaxınlaşmasından "ilan vuran ala çatıdan qorxan kimi" qorxur. Bu səbəbdən də son günlər İranın bizə qarşı münasibətində müəyyən "yumşalma" hiss olunur. İran kimi ikiüzlü xarici siyasət sərgiləyən bir dövlətin heç bir sözünə inanmaq olmaz.

Zəngəzur dəhlizinə gəlincə... Bu, nə İranın, nə də Ermənistanın istəyindən asılı olmayan məsələdir. Bütövlükdə Zəngəzurun İrana heç bir aidiyyəti yoxdur. Bu ərazi Sovet İttifaqının rəhbərliyi tərəfindən sonradan ermənilərə qanunsuz şəkildə verilmiş Azərbaycan torpaqlarıdır..."

Beynəlxalq münasibətlər üzrə şərhçi Şəhla Cəlilzadə bildirdi ki, İranla Azərbaycan hazırda çox kövrək bir normallaşma prosesi içərisindədir: "Bu il yanvar ayının 27-də Tehrandakı səfirliyimizə edilən hücumdan sonra səfirliyin bağlanması, ardından yaşanan bir sıra proseslər ikitərəfli münasibətləri tarixin ən aşağı səviyyəsinə endirmişsə də, İran tərəfindən edilən cəhdlərlə bir normallaşma prosesinə start verilib. İran tərəfi Azərbaycan səfirliyinin maksimum qorunacağı vədləri verməklə onun təkrar açılmasına dəvət edir. Bugünlərdə isə İran XİN "Qarabağ Azərbaycanın bir hissəsidir" açıqlaması verməklə Azərbaycana dəstək mövqeyi ifadə edib. Əslində bu, İranın hər zamankı mövqeyidir. Hətta 44 günlük Vətən müharibəsindən öncə də İran rəsmi olaraq bu mövqeyi səsləndirib, məsələn, İran Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Baqeri 2019-cu ildə eynən bu fikri səsləndirmiş, Qarabağı Azərbaycan ərazisi kimi tanıdıqlarını bildirmişdi. İranın regiona ənənəvi baxışı var və bu baxış regionda sərhədlərin dəyişilməzliyi, regional "status-kvo"nun qorunub saxlanması, "3+3" regional əməkdaşlıq formatının gücləndirilməsi ilə bağlıdır. Lakin çox paradoksal olsa da, İran tərəfindən irəli sürülən tezislər və mövqelər sözdə qalır və real nəticələr doğurmur. Məsələn, İran Azərbaycanın ərazi bütövlüyünü hər zaman tanıdığını bildirsə də, Ermənistana qarşı sərt mövqe ortaya qoymur, əksinə, Ermənistanla əməkdaşlığı daima genişləndirir. Hələ 2022-ci ilin oktyabrında Ermənistan Aİ müşahidəçilərini ölkəyə dəvət edəndə "İran regionda istər Ermənistan, istərsə də Azərbaycan ərazisində xarici təmsilçilərin olmasına qarşıdır" fikri səsləndirilmişdi. Lakin artıq 1 ildir ki, Aİ təmsilçiləri oradadır və İranın qarşı mövqeyi heç bir yeni reallıq yaratmayıb. Ermənistanın ABŞ ilə birgə hərbi təlimləri zamanı da İran buna qarşı olduğunu açıq şəkildə səsləndirdi. Lakin təlimlər keçirildi. O cümlədən İran Cənubi Qafqazda daxili qarşıdurmalara, sərhəd dəyişikliklərinə qarşıdır və bu barədə mövqe açıqlamaları edir. Azərbaycanla Ermənistan sərhədində 2020-ci ildən bəri yaşanan hər hansı gərginlik zamanı da bənzər açıqlamaları eşidirik, İran-Ermənistan sərhədinin "qırmızı xətt" olması ilə bağlı, yəni Zəngəzur dəhlizinin açılması əleyhinə açıqlamalar da bir ara səngimədi. Lakin bu açıqlamalarla region dövlətlərinin mövqeləri tənzimlənmir. Görəsən, İranda Qərbə yönəlməkdə olan, ABŞ-la birgə hərbi təlimlər keçirən Ermənistana qarşı "Bu bizim qırmızı xəttimizdir" şəklində bir rəsmi mövqe ifadəsi edilsəydi, Ermənistanda bunu necə qarşılayardılar?! Təbii ki, hər bir dövlət öz milli maraqları aspektindən məsələyə yanaşır və müvafiq davranış sərgiləyir. Azərbaycanla Ermənistan arasında hər hansı bir eskalasiya olacaqsa, bunun qarşısını İran ala bilməz, yaxud əksinə. O cümlədən ölkəsində milyonlarla etnik qrup nümayəndələrinin haqlarını tapdalayan bir dövlətin başqa bir dövlət ərazisində mövcud etnik azlıqla bağlı fikir səsləndirməsi olduqca irrasionaldır. Amma nəzərə alsaq ki, hətta uzaq Qabon ölkəsi də Qarabağdakı vəziyyətlə bağlı "narahatlıq" ifadə edir, regiona aid olan və olmayan ölkələr, onlardan tələb olunan və ya olunmayan anlarda "mövqe" səsləndirirlər. Bu da hazırkı beynəlxalq nizamın (o cümlədən regional nizamın) əslində nizamsızlığından irəli gələn tendensiya olaraq qiymətləndirilə bilər".

❑ **Cavanşir ABBASLI**
"Yeni Müsavat"

Tehran prokuroru: "Səfirliyə hücum edən şəxsi ən ağır cəza gözləyir"

Azərbaycanın İrandakı səfirliyinə silahlı hücum edən şəxsin barəsində ittiham aktında ona ən ağır cəzanın verilməsi tələb olunub. İRNA agentliyinin məlumatına görə, bunu Tehranın baş prokuroru Əli Salehi bildirib.

Agentliyin məlumatında xatırladılır ki, yanvarın 27-də Azərbaycanın İrandakı səfirliyinə silahlı hücum olub, nəticədə bir əməkdaş həlak olub, daha üç nəfər yaralanıb.

Salehinin sözlərinə görə, məhkəmə işi hərtərəfli araşdırıb və səfirlik daxilində Azərbaycan vətəndaşını odlu silahla qətlə yetirmək, icazəsiz silah və sursat almaq və saxlamaq, AK-47 avtomatı və tapança da daxil olmaqla, ictimai asayişin pozulması ittihamı irəli sürülüb.

Qeyd edək ki, Azərbaycanda səfirliyə hücum terror aktı kimi qiymətləndirilib. Lakin Tehran prokurorunun sözlərindən belə çıxır ki, İranın ədalət mühakiməsi bu cinayəti terror hücumu kimi tövsif etməyib.



Baş prokurorlar İranda saxlanılan Fəridi müzakirə etdi

İranın baş prokuroru Məhəmməd Mohadi Azad Azərbaycana gəlib. O, Bakıda keçiriləcək İƏT-ə üzv ölkələrin baş prokurorlarının dördüncü iclasında iştirak edəcək. Məlumata görə, bu, İran baş prokurorunun vəzifəyə təyin olunduqdan sonra ilk xarici səfəridir.

Baş prokuror Kamran Əliyev iranlı həmkarı ilə görüşü zamanı İran İslam Respublikasında məhkum edilən Azərbaycan Respublikasının vətəndaşı Fərid Səfərlinin barəsində cinayət işi müzakirə olunub. Bu barədə Baş Prokurorluğun Mətbuat Xidmətindən verilən xəbərdə qeyd edilib.

Görüşdə ölkəmizin İran İslam Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Əli Əlizadə və İran İslam Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Seyid Abbas Musəvi iştirak edib.



Yadplanetlilər Milli Məclisdə

Zamin HACI
zaminhaci@gmail.com

Öncə bütün bakılıları və şəhərimizin qonaqlarını 15 sentyabr - Bakının qurtuluş günü bayramı münasibətiylə qutlayıram. Bəzi manısların sərsəmləməsinə fikir verməyin, Bakının qurtulması xalqımız üçün çox böyük hadisədir.

Mən özüm "Bakılı qız" mahnısını sevirəm, kefim yaxşı olanda zümzümə edirəm: "Sən gözümün qarasısan, Ürəyimin parasısan, Burda çoxmu qalasısan, Gedək gəzək, qalma yalqız, bakılı qız". Möhtəşəm sözlərdir. Özü də çox adam bilmir, bu mahnının sözlərini fizika-riyaziyyat elmləri namizədi Rafiq müəllim yazıbdır. Rafiq Əliyev yox, o Lütfi Zadə ilə qeyri-səlis məntiq üzrə araşdırmaçıdır, son illər isə Təzə Pirdə moizələr oxuyur. "Bakılı qız"ı yazan Masallıda doğulan Rafiq Sayadoğludur.

Bunun özü çox ilgincdir ki, Bakı qızlarına aid şeiri hansısa rayon uşağı yazır. Sovetski sökülməyən vaxtlar belə hadisələrə görə adam bıçaqlanırdı. Ehh, maraqlı günlər idi, Qorbaçovun öyü yıxılsın.

İkincisi, Meksikada Hayme adlı bir jurnalist 2 dənə yeşiyi sürüyüb gətirib deputatxanaya, bunların içindəki skeletlərin yadplanetlilərə məxsus olduğunu söyləyib. Hətta Qurana və yerli seyidlərin cəddinə and içib.

Deyir başqa planetdən gələnlər hər gün Meksika üzərində uçur, hökumət hara baxır, niyə Müsavat Partiyası qeydiyata alındı və sairə (axırıncını misal üçün yazdım, təbii, elə deməyibdir). Hazırda dünyada nə qədər boş-bekar qəzetçi varsa, bu hadisəni işıqlandırır, maraqlıdır, hələ bizdə yazan yoxdur, mən indi bu boşluğu doldurdum.

O da qəribə haldır ki, həmin bu Hayme müəllim vaxtaşırı belə uzaylı-zad leşi tapıb gətirir, hər dəfə də araşdırırlar, yalan olduğu ortaya çıxır. Məsələn, 4-5 il qabaq anomaliya ilə doğulan uşaqların skeletini uzaylı adıyla sırımaq istəmişdi, biabır olmuşdu. Lakin kimin vecinədir? Meksika xalqı unutqan xalqdır, necə ki, biz 70 il sovet dövründə Bakının qurtuluşunu yaddan çıxartmışdıq, elə bilirdik hər zaman Azneftdən bulvara dığırlanıb Nu poqodi çayxanasında domino oynamışıq.

Sözümün canı odur ki, Bakı şəhərinin relyefi elədir ki, bunu tez-tez qurtarmaq lazım gəlir. Sumqayıtla Batandartın (niyə Badamdarı belə yazdım, bunun sirri var, bizimlə qalın, növbəti köşələrimizdə vacib toponimika bilgiləri açıqlanacaqdır), Şərqlə Qərbin, İranla Rasiyanın arasında yerləşir. İnşallah, böyük şəhər bələdiyyəsi yarananda Bakının baş planı təsdiqlənər.

O cümlədən niyə bizim parlamentdə yadplanetlilər nümayiş etdirilmir? Hesab edirəm əlaqədar orqanlar xalqın ehtiyaclarını nəzərə almağa borcludur. Ya bizim jurnalistlərin başqa planetlərlə əlaqəsi zəifdir, ya da parlamentimiz kosmosdan gələn seçicilərin problemləri ilə maraqlanmaq istəmir. Halbuki biz Səyavuş müəllimi Venera planetindəki Milli Məclisə qonaq göndərsək, planetlərarası parlamentlərarası dostluq qrupu yaradardı.

Əlbəttə, bunlar hamısı vacib, aktual mövzulardır, lakin pensiya yaşının qalxması təkliflərini də gərək unutmayaq. Təzəlikcə bir hesabat vardı, deyir pensiyaçıların sayı azalır, gəlin pensiya yaşını qaldıraq, çoxalsınlar. Zərərli müxalifətçilərin fikrincə, azalma pensiyaçılara verilən pulun azlığı ilə bağlıdır. Guya hökumət yaşlılara az pul verir, ona görə tez ölürlər. Yalandır. Ona qalsa uşaqlara heç uşaq pulu verilmir, lakin maşallah, hamısı cin kimidir, küçədə adam görəndə minmək istəyirlər.

Sonda bir vacib qərar. Konstitusiya Məhkəməmiz 12 sentyabrda iclas eləyib. Sitat: "Qərarda deyilir ki, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 83.4-cü maddəsinin mənasına görə, məhkum edilmiş şəxsin cəzasının çəkilməmiş hissəsi daha yüngül cəza növü ilə əvəz edildikdə, məhkumluğun ödənilməsi müddəti cəzanın çəkilməmiş hissəsini əvəz edən cəzanın çəkilib qurtardığı gündən hesablanmalıdır". Sitatın sonu.

Bu qərarı başa düşən adama "Ana dili" mükafatı veriləcəkdir. Bəlkə başqa planetlərin dilində yazılıbdır? Ola bilər. (Bax: Meksika).

P.S. Meksikanın qədim sakinləri asteklərin dilində bizim təpə sözü elə təpə kimidir, bilirdinizmi?



ABŞ etiraf edir ki, Xankəndidə etibarlı adamı yoxdur

Bəs Senatdakı Menendez "ermənilərin acından öldüyü" xəbərlərini haradan alır, Azərbaycana, Prezidentə qarşı xain planları necə qurur...

Senatın Xarici əlaqələr komitəsinin sədri Bob Menendez Azərbaycana qarşı növbəti dəfə çirkin kampaniyaya start verib. O, Azərbaycan hökumətinin "etnik erməni anklavına qarşı soyqırım" apardığını iddia edərək, ABŞ-ı Prezident İlham Əliyevə qarşı sanksiyalar tətbiq etməyə çağırıb.

Senator Menendez Beynəlxalq Cinayət Məhkəməsinin keçmiş prokuroru Luis Moreno Okamponun qərəzli hesabatına istinad da edib.

"Turan" xəbər verir ki, anonimlik şərti ilə çıxış edən ABŞ Dövlət Departamentinin yüksək vəzifəli nümayəndəsi Dağlıq Qarabağdakı humanitar vəziyyətdən dərin narahatlığını bildirib, lakin yerində "kadr çatışmazlığı səbəbindən" ilk əldən məlumat əldə etməyin çətinliyinə işarə edib.

"Bu cür lobbizm, "pul danışıqları", azərbaycanlılara və başqalarına qarşı açıq-aşkar yalan və irqçi nifrət ABŞ Konqresinin imicinə və qlobal reputasiyasına xələl gətirir. Utancvericidir!" Bu fikirləri isə Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev "X" hesabında ABŞ Senatının Xarici əlaqələr komitəsinin sədri, senator Bob Menendezə cavab olaraq yazıb.

Bəs niyə Bob Menendez daha çox Prezident Əliyevi hədəfə alır, rəsmi Vaşinqton niyə bu sayğısız davranışa etiraz etmir? Daha bir maraqlı məqam Dövlət Departamentinin Xankəndidə kadrı-yəni baş verənlərlə bağlı ilkin mənbədən informasiya almaq imkanın olmamasını etirafıdır. Nə qədər inandırıcı hesab etmək olar? Qarabağı "anklav" adlandırmaq bu adamın qərəzinin açıq-aşkar ifadəsidirmi?

Milli Məclisin deputatı Elman Nəsirov "Yeni Müsavat"a bildirdi ki, ermənidən çox erməni olan Bob Menendez yenə də öz köhnə ampluasındadır, yenə də erməni sevgisini yeni çalarlarla ifadə etməkdədir: "Görünür, 2024-cü ildə həm Prezident, həm də parlament seçkiləri olacağından Menendezin ABŞ-dakı erməni lobbisi və diasporunun köməyinə çox böyük ehtiyacı olacaq. Nəzərə alsaq ki,Menendezin həyat yoldaşı da ermənidir, onun Azərbaycana qarşı çoxsaylı yalan, iftira və təzyiq kampaniyasının arxasında həm də hansı amilin dayandığı bəlli olur. Bu dəfə Menendez Azərbaycana qarşı növbəti qərəzini ortaya qoyub. Azərbaycanı ittiham edir ki, guya Azərbaycan dövləti "etnik erməni anklavına qarşı soyqırımı" siyasəti həyata keçirir. Əvvəla, "etnik erməni anklavı" nədir, bu nə ifadədir? Eyni məntiqlə Kaliforniyada yaşayan ermənilər də etnik erməni anklavı hesab etməliyik. Eyni məntiqlə Fransanın Marsel şəhərində yaşayan ermənilər də etnik erməni anklavının təmsilçiləri adlandırmayılıyıq. Bu nə absurd yanaşmadır?! Hətta ermənilər bu ifadəni işlətmirlər. Ona görə də Bob Menendez kimi senatorlar ermənidən çox ermənilik etdiklərini nümayiş etdirirlər. Azərbaycana qarşı yeni kampaniya çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyevə qarşı da sanksiyalar tətbiqi məsələsini gündəmə gətirib. Görünür, Bob Menendez həm də qocalıb və onda artıq normal düşünmək, normal mühakimə yürütmək qabiliyyətini itirib. O dərk eləmir ki, vətəndaşı olduğu ABŞ-ın beynəlxalq terrorizmə qarşı mübarizə strategiyasına, onun ali siyasi rəhbərliyi, şəxsən Prezident İlham Əliyev çox böyük töhfə verib. Prezident İlham Əliyev beynəlxalq sülhün və təhlükəsizliyin təminatında misilsiz xidmətlər göstərib. Avropanın enerji təminatında Azərbaycanın oynadığı rolu dünya, xüsusilə ABŞ hər zaman vurğulayır. Bu siyasətin reallaşmasında Azərbaycan Prezidenti İlham Əliyevin xidmətlərinin misli bərabəri yoxdur".

E.Nəsirovun fikrincə, bütün bunlara baxmayaraq, Bob Menendezin İlham Əliyevi hədəfə alması məsələnin arxasında erməni lobbisinin olduğuna şübhə yeri qoymur: "Erməni lobbisi və Menendez kimilər Azərbaycan dövlətinin öz torpaqlarını azad etməsini, qalib ölkə olmasını, inkişafını həzm edə bilmirlər. Prezident İlham Əliyevin Azərbaycanı qələbələrə aparması erməni lobbisinin və Menendez kimilərinin yuxusuna haram qatıb. Onlar bilirlər ki, Azərbaycanın uğurlarının kökündə Prezident İlham Əliyevin müstəsna xidmətli var. Ona görə də qərara gəliblər ki, Azərbaycanın inkişafının mənbəyi olan bir lideri hədəfə almaq lazımdır. Ancaq onların istəkləri boş xülyalardır. Azərbaycan dövlətinə və Prezidentinə Menendez kimilərinin təsir etməsi mümkün deyil. Menendez kimilər Azərbaycan Prezidentini sanksiya ilə hədələyir, amma Azərbaycan xalqı öz Prezidentinin arxasındadır, birlik nümayiş etdirir. Azərbaycan Prezidenti də məhz xalqına arxalanır və xalqının milli mənafeyindən irəli gələn müstəqil siyasət həyata keçirir".

Deputat qeyd etdi ki, ABŞ Dövlət Departamenti də gərək Qarabağda baş verən hadisələrə real qiymət versin. ABŞ-ın siyasi rəhbərliyi Menendez kimi ABŞ-Azərbaycan münasibətlərinə xələl gətirən siyasətçiləri yerində otuzdursun. Ağ Ev həssas məsələlərdə çeviklik nümayiş etdirməlidir.

Demokratiya və İnsan Hüquqları Komitəsinin sədri Çingiz Qənizadə isə bildirdi ki, ABŞ Senatının xarici əlaqələr komitəsinin sədri Bob Menendez birinci dəfə deyil Azərbaycana qarşı qərəzli mövqeyi ilə gündəmə gəlir. İndi də rəhbərlik etdiyi komitədə Azərbaycanı müzakirəyə çıxarmaq cəhdi bir daha bizi əmin edir ki, bu senator erməni lobbisinin həmişə olduğu kimi yenə də əlində oyuncaqdır: "Xüsusilə nəzərə alsaq ki, Beynəlxalq Cinayət Məhkəməsinin keçmiş prokuroru Luis Moreno Okampo kimi rüşvətxorun, dələduzluqda ad çıxarmış birisinin hazırladığı sənədə istinad etməsi Menendezin də Okamponun tayı olduğunu göstərir. Okamponun hazırladığı sənədin həqiqətə uyğun olmadığını artıq müxtəlif institutlar bəyan ediblər, sənədin qərəzli hazırlandığı artıq ictimailəşib. Menendezin həm bu cür saxta sənədə istinad etməsi, həm də Azərbaycanın ABŞ tərəfindən də tanınan ərazisi olan Qarabağı "anklav ərazi" adlandırması, Azərbaycan Prezidentinə qarşı sanksiyalar tətbiq etmək çağırışları əslində təəccüblü deyil. O mənada təəccüblü deyil ki, Menendezin qidalandığı erməni lobbisi Azərbaycana və onun müzəffər Ali Baş Komandanına düşmən kəsiliblər. Düşmənçiliklərini bütün vasitələrlə həyata keçirməyə çalışırlar. Menendezin səsləndirdiyi qərəzli fikirlər ABŞ-ın siyasəti deyil, məhz erməni lobbisinin və onların əlalatısına çevrilmiş bir qrup senatorun ermənilərə xidmətidir. Ermənilərdən aldıqları pulların qarşılığını verdiklərini nümayiş etdirirlər".

Hüquq müdafiəçisi hesab edir ki, ayın 15-də Senatda keçiriləcək bu dinləmələr də uğursuzluğa düçar olacaq. Çünki hazırlanan və müzakirəyə çıxarılan sənəd başdan ayağa qərəzlidir, həqiqətlərin təhrifidir: "Okamponun hazırladığı saxta sənədi müzakirəyə çıxarmaq heç Senatın özünə də baş ucalığı gətirmir. Menendezin hərəkəti Cənubi Qafqazda sülhün bərqərar olmasını istəməyən qüvvələrin sifarişidir. Əgər o, doğrudan da sülh istəsəydi, Ermənistana çağırış etməli idi ki, Ermənistan silahlı qüvvələri Azərbaycan ərazisindən çıxmalıdır, Azərbaycanın ərazidəki etnik ermənilərə humanitar məqsədlər üçün təkliflərini qəbul edin. Ermənistana isə indiyə qədər əldə olunan razılaşmalara əməl etməsi çağırışı edilməli idi. Lakin Menendez qərəzli və erməni lobbisinin oyuncağı olduğu üçün bunları etmir, vaxtaşırı Azərbaycanı və Azərbaycan Prezidentini hədəfə alan fikirlər irəli sürür".

❑ **Etibar SEYİDAĞA,**
"Yeni Müsavat"

Hikmət Hacıyev "Politico" nəşrindəki məqaləsində nələr yazıb?

Prezidentin köməkçisi erməni yalanların ifşa edib



"Azərbaycanlılar sülh istəyir. Biz bərpa, barışıq və nə vaxtsa mümkün olarsa, qonşularımızla dostluq istəyirik".

Bu barədə Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev "Politico" nəşri üçün məqaləsində yazıb.

"Azərbaycanın bu bölgəsi - Qarabağ 30 il ərzində qonşu Ermənistan tərəfindən işğal olunub. 1990-cı illərin əvvəllərində 1 milyona yaxın azərbaycanlının öz torpaqlarında etnik təmizləməyə məruz qaldığı amansız müharibədən sonra işğalçı Ermənistan silahlı qüvvələri bu ərazinin minlərlə kvadrat metrini minalayıb. Orada, Azərbaycanda qalan etnik ermənilərin icması Ermənistanla vahid quru yolu - Laçın yolu ilə əlaqə saxlayırdı.

Qanunsuzluğun və minaların bu "boz zonası" üç il əvvələ qədər, Azərbaycan 44 günlük müharibədə Qarabağ ərazisinin böyük hissəsini azad edənə qədər mövcud idi.

Qanun və mənəviyyat baxımından bu "boz zona"nın qalan hissəsində yaşayan vətəndaşlar Azərbaycan vətəndaşlarıdır - hətta Ermənistanın hazırkı baş naziri də ictimai şəkildə qəbul edir ki, Qarabağ Azərbaycanın suveren ərazisidir. Bu, həm də o deməkdir ki, Azərbaycan etnik mənsubiyyətindən asılı olmayaraq və ola bilsin ki, yaxın tarixi nəzərə alaraq, hətta daha çox bu səbəbdən orada yaşayanların qayğısına qalmalıdır.

Azərbaycan hökuməti dəfələrlə Qarabağda yaşayan ermənilər üçün Laçın yolundan daha qısa və sürətli yollarla ərzaq, dərman vasitələri və digər humanitar mallar çatdırmağı təklif edib. Azərbaycanın təklif etdiyi quru yol marşrutları Avropa İttifaqı (Aİ), ABŞ və Beynəlxalq Qızıl Xaç Komitəsi (BQXK) tərəfindən həyat qabiliyyətli və istifadəyə yararlı olaraq qəbul edilib və hələ bu həftə ABŞ-nin dövlət katibi Entoni Blinken "hər iki dəhlizi dərhal və eyni vaxtda açmağa" çağırıb.

Lakin dünya mediasında yazılanlar tamamilə fərqlidir.

Qonşu Azərbaycanda yaşayan etnik ermənilərin bizə deyildiyi kimi, müstəsna olaraq Ermənistan tərəfindən vahid monoetnik marşrut üzərindən təmin edilməli olduğuna dair fikir necəsə beynəlxalq ictimaiyyət və media üçün məqbuldur. Bizə deyilənə görə, bu onunla bağlıdır ki, bu münaqişə digərlərindən fərqlənir və ermənilər tarixi səbəblərdən azərbaycanlılarla birgə yaşaya bilməzlər. Lakin tarix və reallıq bizə əksini öyrədib - bu, sadəcə, yanlışdır.

1990-cı illərdəki müharibəyə qədər azərbaycanlılar və etnik ermənilər Qarabağda yan-yana, dinc şəraitdə yaşayıblar. Bu gün Azərbaycanda 30 minlik yəhudi icması yaşayır. Yevangeliya xristianlarının icması böyüməkdədir. Gürcülər, ruslar, ukraynalılar hamısı bu gün çoxmillətli və çoxkonfessional ölkənin tərkib hissəsidir. Bu, Qarabağ ermənilərinə də aid ola bilər və olmalıdır.

Lakin Ermənistan daxilində vəziyyətin dəyişməsini, yaxud bu tarixin üstünün tam açılmasını istəməyən güclü qüvvələr mövcuddur. Onilliklər ərzində ölkə rəhbərliyi Ermənistandakı ermənilərdən deyil, Qarabağdakı separatçı rejimin başında duran "siyasətçilərdən" formalaşıb.

Bu gün bu qondarma "liderlər" revanşa can atır. Azərbaycan və Ermənistanın təklif etdiyi sülh sazişi onlar üçün qəbuledilməzdir. Qonşu Azərbaycanla ticarət erməni xalqının vəziyyətini yaxşılaşdıra bilər, lakin bu liderlərin mövcudluğunu lazımsız edər. Bu siyasətçilər hakimiyyəti qoruyub-saxlamaq uğrunda mübarizədə Azərbaycanın tədarük marşrutu kimi təklif etdiyi yolları bloklayaraq bağlamağa çalışırlar.

Bu milliyyətçilərin öz ölkələrinə və bütün regiona yaşatdıqları ağrı-acını son nəsli nisbətən sülh içində yaşayan qərb insanının tam başa düşməsi çətindir.

Mənim ofisimdə Ermənistanda anadan olan və böyüyən azərbaycanlar çalışır; 30 il bundan əvvəl müharibə başlayanda onlar ölkəni tərk etmək məcburiyyətində qalıblar. Hər birimizin tanıdığı və müharibə zamanı Qarabağı tərk edərək məcburi köçkün kimi yaşamaq məcburiyyətində qalan kimlərisə - qardaşı, bacısı, əmisi/dayısı/bibisi/xalası uşağı, dostu, həmkarı var. Bütün bu dağılan həyatlar, bütün bu ağrı - bütün bunlar bugünkü monoetnik Ermənistanın yaradılması və Qarabağda monoetnik "boz zona"nın dəstəklənməsi uğrundadır.

Lakin belə davam edə bilməz.

Azərbaycanlılar sülh istəyir. Biz bərpa, barışıq və nə vaxtsa mümkün olarsa, qonşularımızla dostluq istəyirik. Əksini iddia edən hekayələr sülhə və razılaşma əldə etməyə kömək etmir. Bundan başqa, onları yaymaqda məqsəd bunun tam ziddidir - bu ağrılı və həssas məsələni həll etmək üçün hər iki tərəfdən danışıqlar aparanları daha da uzaqlaşdırmaq məqsədi daşıyır.

Belə olduqda siyasətdən söhbət gedə bilməz. Bu, daha çox Ermənistanın öz siyasətidir", - məqalədə deyilir.

Rusiyanın məşhur nəşri ermənilərı Azərbaycan ordusu ilə qorxutdu: "Zəngəzura girib..."

"Kommersant" iddia edir ki, Bakı hərbi əməliyyatlara başlayır, mübahisəli məsələləri və Naxçıvana dəhlizi təmin edəcək - kritik gərginliklə bağlı çarpaz baxış



Rusiya baş nazirinin müavini Aleksey Overçuk Zəngəzur nəqliyyat dəhlizinin açılması üzrə üçtərəfli işçi qrupun danışıqlarında fasilə yarandığını açıqlayıb və bunu "Ermənistan və Azərbaycan arasında gərginliklə" izah edib. O, Azərbaycan, Rusiya və Ermənistan baş nazirlərinin müavinlərinin regionda nəqliyyat əlaqələrinin açılmasına dair növbəti görüşünün "bunun üçün şərait yetişəndə baş tutacağını" deyib.

"Yeni Müsavat" bildirir ki, Rusiyanın "Kommersant" nəşri Ermənistan-Rusiya gərginliyi fonunda Zəngəzur dəhlizinin taleyi ilə bağlı önəmli məqamlara toxunub. Bildirilir ki, Azərbaycan sərhədə hərbi texnika cəmləyir - onların üzərində Rusiyanın 24 fevral ərəfəsində Ukrayna ilə sərhədə göndərdiyi texnikaların üzərindəki "Z" və "V" hərflərinə bənzər işarələr var. Bundan çıxış edən müəllif Bakının yaxın günlərdə hərbi əməliyyatlara başlayacağı ilə bağlı "çoxlu sübutların" olduğunu bildirib. İddia olunur ki, Azərbaycan vəziyyətdən istifadə edərək, "bütün mübahisəli məsələləri, o cümlədən Naxçıvana dəhlizin yaradılmasını təmin edəcək".

Analizdə iddia edilib ki, hazırkı şərait Bakı üçün həmişəkindən daha əlverişlidir: "Birincisi, 2020-ci ilin payızındakı 44 günlük müharibədə də təsdiqləndiyi kimi, qüvvələr balansı açıq şəkildə Azərbaycanın xeyrinədir. İkincisi, Azərbaycan əsas müttəfiqi olan Türkiyənin faktiki olaraq qeyri-məhdud dəstəyinə arxalanmaqda davam edir. Üçüncüsü, ermənilərin belə müttəfiqi yoxdur. Rusiya onlara kömək etmək istəsə belə, Ukraynada çox dərin bataqlığa düşüb və çətin ki, özünə ikinci cəbhə açsın. Qərb də çox uzaqdadır və hərbi cəhətdən vəziyyətə təsir edə bilmir, iqtisadi cəhətdən isə özü də qismən Rusiya neftini əvəz edən Azərbaycan nefti və qazının tədarükündən çox asılıdır. Özünü çıxılmaz vəziyyətə salan Nikol Paşinyan, görünür, indidən həmvətənlərinə gələcək məğlubiyyəti və gələcək mümkün güzəştləri necə izah edəcəyini düşünür. Deyəsən, onun "müdafiə xətti" belə olacaq: "Hər şeydə günahkar Moskvadır, həm üç il əvvəl müttəfiqini taleyin ümidinə buraxan o idi, həm də indi, Bakıya Qarabağın blokadasını həyata keçirməyə icazə verən odur və ermənilərin arxasında İlham Əliyevlə danışıqlar aparır".

"Bugünlərdə Ermənistanda bir sıra daxili qüvvələr yenidən ölkənin suverenliyinə qəsd edirlər". Bu cümlələr Ermənistanın hakim "Vətəndaş sazişi" partiyasının parlament fraksiyasının rəhbəri Ayk Koncoryanın sosial media hesabında yazdığı statusda əks olunub. Koncoryan həyasızlıqla Azərbaycanın üzərinə böhtan atmaqdan çəkinməyib: "Bugünlərdə Azərbaycan növbəti dəfə Ermənistanın sərhədləri boyunca böyük miqdarda hərbi texnika cəmləşdirir. İrəvanda yenidən seçki kampaniyası gedir. Və bugünlərdə Ermənistanın bir sıra daxili qüvvələri yenidən Ermənistan Respublikasının suverenliyinə qəsd edir, İrəvanı qanla da olsa ələ keçirməklə hədələyirlər. Ermənistan yenidən iki cəbhədə döyüşür", - deyə Koncoryan qeyd edib.

Lakin eyni gündə Türkiyə Milli Müdafiə Nazirliyindəki mənbəyə istinadla xəbər verilib ki, Ermənistanın bölgədə təkcə atəşkəsi pozması deyil, həm də səngərlər qazması, yeni mövqelərdə istehkamlar inşa etməsi müşahidə olunur. Qeyd olunub ki, Ermənistan təxribatlardan əl çəkməli, diqqətini sülh danışıqları və əməkdaşlığa yönəltməlidir: "Regional sülh və sabitliyə aparan yol hərtərəfli sülh sazişinin imzalanmasından keçir. Bu səbəbdən də Zəngəzur dəhlizinin açılması böyük əhəmiyyət kəsb edir".

Bütün bu açıqlamalar vəziyyətin kifayət qədər ciddiliyini gözlər önünə sərir. Hər iki tərəfdən səslənən bəyanatlar, sərhəddə gərginliyin olması ilə bağlı qarşılıqlı ittihamlar, Rusiya mətbuatında yer alan təhlillər və Türkiyə MN-ə istinadla yayılan xəbərlər yetərincə aydın təsəvvürlər formalaşdırır. Ancaq Paşinyan elan edib ki, qoşunları sərhəddən geri çəkməyə hazırdır. Onun ardıcıl olaraq 5 ölkə liderlərinə zəngi də həyəcanını əks etdirirdi. Hiss olunur ki, rəsmi İrəvan böyük panika içərisindədir. Amma faktiki olaraq sərhəddə atəşkəsi pozan da erməni tərəfidir.

Ekspertlər nə düşünürlər, bu proses hansı mərhələyə yaxınlaşdırır? Hərbi toqquşmalar baş verə bilərmi? "Kommersant"ın analizi realdırmı?

Azad Vətən Partiyasının sədri Akif Nağının "Yeni Müsavat"a bildirdiyinə görə, Rusiya Ermənistanın Qərbə meyllənməsindən narazıdır, bunu da müxtəlif yollarla onlara çatdırmağa çalışır. Partiya sədrinin fikrincə, rus nəşrinin məqaləsi də bu kontekstdə dəyərləndirilə bilər: "Putinin köməkçisi Peskov da açıq surətdə bəyan etdi ki, Ermənistandan çıxmayacağıq. Paşinyan isə tam aydın formada qeyd etdi ki, təhlükəsizlik məsələsində daha Rusiyaya arxalana bilmərik. Yəni Moskva-İrəvan münasibətlərində gərginlik pik həddə çatıb, ona görə Rusiya mətbuatı Azərbaycanla bağlı iddiaları səsləndirməklə Ermənistana təzyiq edir. Lakin bizim öz maraqlarımız və siyasətimiz var. Azərbaycan vəziyyətdən yararlanmalı, məsələləri həll etməlidir".

Azərbaycan Milli İstiqlal Partiyasının (AMİP) sədri Arzuxan Əlizadə isə qəzetimizə qeyd etdi ki, "Kommersant"ın analitik məqaləsində həqiqət payı var. Partiya sədri hesab edir ki, 44 günlük müharibədə Rusiya qismən neytral dayandı və erməni ordusunun gücsüzlüyü ortaya çıxdı: "Ermənistan dövləti həmişə Rusiyanın hesabına yaşayıb və indi üz çevirirlər, nəticəsi gərginliyə səbəb olub. Əgər Rusiya əlini Ermənistandan tam çəkərsə, fəlakətlə üzləşə biləcəkləri onlara xatırladılır. Ermənistanın bugünkü 20 min kvadratkilometr ərazisi məhz Rusiya tərəfindən Ermənistana hədiyyə edilib. Yəni qondarma bir dövlətdir və varlığı üçün Rusiyaya minnətdar olmalıdır. İndi isə münasibətlər pisləşib, Azərbaycanın bu iki dövlət arasında gərgin əlaqələr dövründə tarixi ərazilərini geri qaytarmaq imkanları var. Sözsüz ki, Rusiya Ermənistanı forpostu kimi saxlamağı məqsəd güdür, lakin bizim maraqlarımız var. Ona görə Rusiya mətbuatında səslənən fikirlərdə müəyyən reallıqlar var, çünki Moskva-İrəvan gərginliyi Bakıya yeni fürsət pəncərəsi açır".

❑ Emil SALAMOĞLU
"Yeni Müsavat"

YENİ MÜSAVAT
N 164 (8300) 15 sentyabr 2023

Azərbaycanın yəhudi icmasına və İsrail prezidentinə təbrik



Prezident İlham Əliyev Azərbaycanın yəhudi icmasını təbrik edib.

Təbrikdə deyilir:

"Hörmətli həmvətənlər!

Sizi - Azərbaycanın yəhudi icmasını yeni il bayramınız Roş ha-Şana münasibətilə ürəkdən təbrik edir, hər birinizə ən səmimi arzu və diləklərimi yetirirəm.

Dünyada sivilizasiyalararası və mədəniyyətlərarası dialoqa mühüm töhfələr verən Azərbaycanda tarixən olduğu kimi, bu gün də yüksək birgəyaşayış mədəniyyəti, ayrı-ayrı xalqların və dinlərin nümayəndələri arasında nümunəvi dostluq və qardaşlıq münasibətləri hökm sürür. Müasir demokratik prinsiplər əsasında insan hüquq və azadlıqlarının təminatı, etnik azlıqların dil və mədəniyyətinin qorunub saxlanılması, multikultural dəyərlərin və tolerantlıq ənənələrinin təşviqi həyata keçirdiyimiz dövlət siyasətinin başlıca istiqamətlərindəndir.

Etnomədəni rəngarəngliyi ilə seçilən ölkəmizdə yüz illərdir məskunlaşan və Azərbaycanı özünə doğma vətən bilən yəhudi icması sülh, əmin-amanlıq şəraitində yaşayaraq heç vaxt antisemitizmə, ayrı-seçkiliyə məruz qalmamış, cəmiyyətimizin ayrılmaz hissəsinə və bərabərhüquqlu üzvünə çevrilmişdir. Əlamətdar haldır ki, yəhudi əsilli vətəndaşlarımız respublikamızın ictimai-siyasi həyatında yaxından iştirak edir, ümumi evimiz olan Azərbaycanın inkişafı və tərəqqisi naminə səylərini əsirgəmirlər.

Əziz dostlar!

Roş ha-Şana yeniləşmə, xoş müjdələr, mənəvi saflıq bayramıdır. Bu əziz gün münasibətilə bir daha hamınıza səmimi təbriklərimi çatdırır, ailələrinizə xoşbəxtlik, süfrələrinizə xeyir-bərəkət arzulayıram.

Bayramınız mübarək olsun!"

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İsrail Dövlətinin Prezidenti İsxak Hersoqa təbrik məktubu ünvanlayıb.

Mətndə deyilir:

"Hörmətli cənab Prezident!

Sizi və Sizin simanızda dost İsrail xalqını qarşıdan gələn yəhudi yeni ili - Roş ha-Şana bayramı münasibətilə öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik etməkdən və ən səmimi arzularımı çatdırmaqdan böyük məmnunluq duyuram.

İnsanlara yeni ruh gətirən, gələcəyə dair yeni ümidlər bəxş edən bu nurlu bayramın Sizə və ailənizə, dost xalqınıza və ölkənizə xoş günlər, əmin-amanlıq, firavanlıq və bol ruzi-bərəkət bəxş etməsini diləyirəm.

Əminəm ki, milli-mənəvi dəyərlərini daim uca tutan xalqlarımızın iradəsinə uyğun olaraq Azərbaycan-İsrail dostluğu və əməkdaşlığının daha da möhkəmləndirilməsi və genişləndirilməsi yolunda bundan sonra da birgə səylər göstərəcəyik".

Yəhudilər Ermənistanı bu səbəbdən tərk edir

Bu ölkədə antisemitizm və İsrailə qarşı nifrətin dərin kökləri var

Bakı ravvini Zamir İsayev Ermənistanda yaşayan yəhudiləri bu ölkəni tərk etməyə çağırıb. "Trend" xəbər verir ki, Avropa və Amerikada ravvinlərin erməni təbliğatı ilə Azərbaycanı demonizasiyasına və Holokost mövzusundan istifadəsinə qarşı kampaniyanın təşəbbüskarı olan Bakı ravvini Zamir İsayev İrəvanda qalan son yəhudilərə videomüraciət edib.

"Bu yaxınlarda İrəvanda yaşayan bir neçə yəhudi mənimlə əlaqə saxlayaraq böyük təzyiq altında olduqlarını deyiblər. Onlar erməni təbliğatının Holokost terminologiyasından istifadəsinə qarşı çıxan Avropa, Amerika, İsrail, eləcə də müsəlman ölkələrinin ravvinlərinin təşəbbüsü ilə bağlı təhdid edilirlər.

Mənə videomüraciətimdən sonra bütün dünyada ravvinlərin etirazını dayandırmaq tələbi çatdırıldı. Xalqımızın faciəsi olan Holokostun xatirəsindən Ermənistan rəhbərliyinin öz siyasi məqsədləri üçün istifadə etməsinə qəzəblənməyə bilmirəm. Mən eyni fikirdə olan digər ravvinləri inandıra bilmirəm ki, ölən 6 milyon soydaşımızın bu şəkildə alçaldılmasına icazə vermək olmaz.

Mən hələ də Ermənistanda yaşayan bir neçə yəhudiyə müraciət edirəm ki, bu ölkəni tərk etsinlər. Əgər siz Holokost yaddaşından mənfur siyasi məqsədlər üçün istifadəni müdafiə etməyə məcbur edilirsinizsə, oradan çıxın! Elə bir ölkəyə gedin ki, yəhudilər dini baxışlarına görə təqib edilmirlər. Daha yaxşısı, yəhudilərə qardaş kimi baxılan Azərbaycana gəlin!"

Qeyd edək ki, Ermənistanda yəhudilərə qarşı hücumlar hələ 44 günlük müharibədən əvvəl başlayıb. Məsələn, İrəvanda Holokost qurbanlarının xatirəsinə ucaldılmış abidəyə "Yəhudilərə ölüm" yazıb, bunu "erməni xalqının Azərbaycana silah satan İsrailə etirazı" kimi izah etmişdilər. Əslində Ermənistanda antisemitizm və İsrailə qarşı nifrətin dərin kökləri var. Yalnız onlardan birini yada salmaq kifayətdir. Ermənilər Birinci Dünya müharibəsi dövründə guya özlərinə qarşı olan "qeyri-insani" münasibətin beynəlxalq səviyyədə tanıdılması məsələsində yəhudi xalqının soyqırıma məruz qalmasını əsas maneə kimi görürlər.

İsrailin Azərbaycanda uzun illərdir səfirliyi fəaliyyət göstərsə də, indiyədək Ermənistanda belə bir diplomatik nümayəndəlik açmayıb. Hansı ki, Ermənistan təxminən 2000-ci illərdə Təl-Əvivdə səfirlik yaradıb. Günümüzdə İsrailin Ermənistanla əlaqələri Gürcüstandakı yəhudi səfirliyinin vasitəsilə icra edilir. Yəhudilərin Ermənistanı tərk etməsi bu iki ölkə arasında münasibətlərə necə təsir edəcək? Yəhudi lobbisi bu prosesi ermənilərin heç bir xalqla yola getmədiyi ifşasına çevirə biləcəkmi?



YAP-çı deputat Aydın Mirzəzadə yəhudilərin həqiqətlərini gördüklərindən danışdı: "Ermənistanda millətçilik o səviyyəyə çatıb ki, ölkədə demək olar ki, ermənilərdən başqa millət yaşamır. Qalan azsaylı xalqların nümayəndələri isə təzyiqlərə məruz qalırlar, onları ermənilərin təbliğat maşınında işləməyə məcbur edirlər. Bu hadisə bugünlərdə Ermənistanda yaşayan yəhudi ailələri ilə bağlı baş verdi. Yəhudilərin tarixində Holokost deyilən çox ağır bir səhifə var. Faşist Almaniyası tərəfindən qətlə yetirilən 6 milyon yəhudini təkcə yəhudilər deyil, tərəqqipərvər bütün xalqlar xatırlayır. Ancaq Ermənistan bu gün ona qarşı həqarətlə yanaşır. Ondan özünün çirkin təbliğatı üçün istifadə etməyə çalışır. Olmayan 1915-ci il soyqırımını Holokosta bərabər tutur. Bu isə əlbəttə, ayrı-ayrı ölkələrdə yaşayan yəhudilərin, yəhudi təşkilatlarının ciddi narazılığına səbəb olur. Məhz bu səbəbdən bu gün xaricdə yaşayan yəhudi icmaları Ermənistana maraq göstərmirlər. Ermənistanda indiyə qədər İsrail səfirliyi yoxdur. Ermənilərin öz çirkin təbliğatında Holokost tarixindən istifadə etməsi yəhudilərdə böyük narazılıq doğurur. Bu baxımdan, Azərbaycanda olan Bakı ravvisinin bu müraciəti digər millətlərə olan münasibətləri xarakterizə etmək üçün çox obyektiv bir münasibətdir. Ermənistanda digər dillərdə məktəb açılmasına demək olar ki, icazə verilmir. Eyni zamanda burada digər xalqların inkişafına dövlət tərəfindən heç bir qayğı göstərilmir. Öz tarixini, mədəniyyətini qorumağa çalışan yəhudi xalqının nümayəndələri öz köklərini qorumağa çalışırlar. Maraqlısı budur ki, bakılı ravvin həmin ailələri Azərbaycana gəlməyə çağırır. Çünki ölkəmizdə digər xalqlara olduğu kimi, yəhudilərə də böyük hörmət var. Bu gün Bakıda yəhudilərin məbədi olan sinaqoq fəaliyyət göstərir. Yəhudilər üçün orta məktəb var. Azərbaycanda mütəşəkkil, çoxsaylı yəhudi icması fəaliyyət göstərir. Azərbaycan-İsrail münasibətləri bu gün ən yüksək səviyyədədir. İsrail tərəfindən yəhudilərə Azərbaycanda göstərilən münasibət çox yüksək qiymətləndirilir. Heç də təsadüfi deyil ki, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında yəhudi diaspor təşkilatları fəal iştirak edirlər. Çünki onlar həqiqəti görürlər, xalqımızın öz tarixi torpaqları uğrunda apardığı savaşın şahidi olurlar. Çox güman ki, Ermənistanda yaşayan azsaylı yəhudi ailəsi qısa zamanda oranı tərk edəcək. Ermənistan daha bir xalqın oradan köçdüyü ölkəyə çevriləcək".

AĞ Partiya başqanının I müavini, siyasi şərhçi Əhəd Məmmədli qeyd etdi ki, tarix boyu yəhudi-erməni münasibətləri yaxşı olmayıb, gərgin keçib: "Bu iki xalq heç vaxt bir-birilərini sevməyib. Bunun obyektiv və subyektiv səbəbləri var. Ermənilər həmişə yəhudilərə qısqanclıqla yanaşıblar, onlara rəqabətdə uduzublar. Tarix boyu yəhudilər xalq olaraq ermənilərdən bir neçə baş üstün olublar. Bu da ermənilərdə yəhudilərə qarşı bir çatışmazlıq kompleksi yaradıb. Lobbi, diaspora siyasətində də yəhudilər ermənilərı hər yerdə üstələyiblər. Üstəlik, qondarma və geydirmə erməni bətlərdə olan müsəlman ölkəsidir. Əsrlərdir Azərbaycanda yəhudilər çox yaxşı və rahat şəkildə yaşayıblar. Azərbaycan yəhudilərin özünü ən rahat hiss etdiyi dünyada ölkə olub.

Ermənistan özünü Cənubi Qafqazın İsraili hesab etmək istəyirdi. 44 günlük müharibədə Azərbaycan ordusu ermənilərin "ikinci İsrail" illüziyasını darmadağın etdi. Yuxarıda qeyd etdiyim kimi, ermənilər yəhudilərlə rəqabətdə həmişə məğlub olublar. Rəsmi İrəvanın yəhudilərə qarşı hər hansı bir de-marşı uğursuzluğa düçar olacaq. Onsuz da hələlik Ermənistan adlı ölkədə yəhudilər çox az yaşayırlar, bu gedişatla onlar da oranı tərk edib, dost ölkələrə, o cümlədən Azərbaycana da mühacirət edəcəklər".

BAXCP sədrinin müavini, politoloq Niyaməddin Orduxanlının fikrincə, Ermənistanın və ermənilərin İsrail dövlətinə nifrətinin əsasında Azərbaycanla İsrailin dostluq münasibəti durur: "Dünyanın ən güclü lobbiçiliyinə və diasporasına sahib olan İsrail dövləti uzun illərdir Azərbaycanla dostluq, ikitərəfli əməkdaşlıq, iqtisadi, siyasi, hərbi, mədəni və digər əlaqələr qurubdur. Həm də iki xalq arasında qarşılıqlı hörmət var. İsrail dövləti birmənalı şəkildə Qarabağ məsələsində Azərbaycanı müdafiə edir. İsrailin prezidenti açıq şəkildə Ermənistan prezidentinə bildirdi ki, məhz Azərbaycana görə ən müasir hərbi texnikaları Ermənistana satmırıq. Bütün bu amillər ermənilərdə yəhudilərə qarşı böyük bir qəzəb, nifrət yaradıb. Məhz Azərbaycana görə İsrail Ermənistanda səfirlik açmayıb. Zamir İsayev çox doğru çağırış edib. Yəhudilər Ermənistanda hər an təhlükə ilə üzləşə bilər. Erməni lobbisi bütün imkanları ilə çalışır ki, yəhudilərə zərbə vursunlar".

❑ **Cavanşir ABBASLI,**
"Yeni Müsavat"

YENİ MÜSAVAT
N 164 (8300) 15 sentyabr 2023

ABŞ-ın anons etdiyi Vaşinqton görüşü: Paşinyanın üzü yoxdur...

Ekspert: "Növbəti görüşdən sonra da Ermənistan üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməyəcəksə..."

"ABŞ Azərbaycanla Ermənistan arasında sülh prosesini dəstəkləməyə davam edir", - Dövlət Departamentinin yüksək vəzifəli rəsmisi Qarabağda gərginliyin artması fonunda belə deyib. "Turan" xəbər verir ki, Dövlət Departamentinin rəsmiləri "Tərəflər dialoqu davam etdirmək üçün Vaşinqtona qayıtmağa hazırdır" deyiblər.

"Vaşinqtonda görüşlərin üç raundu oldu. Avropada da digərləri oldu və ruslar bir neçə danışıq apardılar", - Dövlət Departamentinin nümayəndəsi deyib. Onun sözlərinə görə, son bir neçə gündə ABŞ "bütün səviyyələrdə" danışıqlar aparıb, dövlət katibi Entoni Blinken həm prezident İlham Əliyevlə, həm də baş nazir Nikol Paşinyanla danışıb. Vaşinqton görüşünün Əliyev-Paşinyan, yoxsa xarici işlər nazirləri səviyyəsində ola biləcəyi haqda konkretləşmə yoxdur. Ola bilsin ki, Blinken bu təklifi erməni baş nazir və Azərbaycan Prezidenti ilə telefon danışığında tərəflərə çatdırıb. Amma indilikdə yüksək səviyyəli görüşün ola biləcəyi ehtimalı çox azdır. Yada salaq ki, bir neçə gün əvvəl Ermənistanın baş naziri Azərbaycana qarşı növbəti təxribata yol verib. Paşinyan "Azərbaycanın ərazi bütövlüyünü tanıyıram" bəyanatını heçə sayaraq "müstəqillik günü"nü qeyd edən separatçıları təbrik edib.



Onun bu addımı indiyə qədər aparılan sülh danışıqlarından birtərəfli qaydada imtina etməkdir.

Paşinyan bundan əvvəl isə deyib ki, Bakıya yeni təkliflər göndəriblər. Söhbət hansı təkliflərdən gedir, bilinmir. Amma rəsmi İrəvanın addımlarından və vurnuxmalarından Paşinyanın təkliflərində yaxşı heç nə gözləmək olmur. O halda, Vaşinqton görüşü haqda verilən anons ABŞ-ın Rusiyaya bir informasiya hücumudur, yoxsa reallıqda bu təmaslara hazırlıq var?

Politoloq Anar Əliyev "Yeni Müsavat"a bildirdi ki, Azərbaycan-Ermənistan sərhədində baş verən gərginliklər və Ermənistanı alət etməklə formalaşdırılmağa çalışılan "böhran" şousu bir sıra dairələri, eyni zamanda Azərbaycanla Ermənistan arasında sülh münasibətlərinin tənzimlənməsinə çalışan ABŞ-ın rəsmi dairələrini narahat etməkdədir. Məhz bu narahatlıqdan çıxış edərək ABŞ Dövlət Departamentinin rəsmisi tərəflərin dialoqu davam etdirmək üçün Vaşinqtona getməyə hazır olduqlarını bəyan edib: "Hesab edirəm ki, bu, bir neçə məqsədə xidmət eləyən bir açıqlamadır. Birincisi, Vaşinqton bununla Ermənistanla Azərbaycan arasında, Cənubi Qafqazda davamlı sülhün əldə olunmasında maraqlı olduğunu bir daha bəyan etmiş olur. Ayrı-ayrı tərəflərdən, xüsusilə də Fransa kimi pozucu davranışlar nümayiş etdirən tərəflərdən fərqli olaraq rəsmi Vaşinqton bölgədə sülhün əldə olunmasını arzuladığını və bu istiqamətdə tərəflərə yardım göstərməyə hazır olduğunu bəyan edir. İkinci mühüm istiqamət ondan ibarətdir ki, son dövrlər Ermənistan və Rusiya rəsmi şəxsləri arasında kifayət qədər kəskinləşən ritorika fonunda ABŞ bölgədə əsas söz sahibinə çevrilmək iddiasını səsləndirmiş olur. Rusiyadan fərqli olaraq bölgədə davamlı sülhün əldə olunmasında maraqlı tərəf kimi çıxış etdiyini göstərir. Eyni zamanda digər bir vacib məqam danışıqlar prosesinin dalana dirəndiyi indiki zamanda bu prosesi yerindən tərpətmək gücündə məhz ABŞ-ın çıxış edə biləcəyi iddialarını ortaya qoyur. Amma məsələ ondadır ki, artıq üç ilə yaxın bir dövr ərzində Ermənistanla aparılan danışıqlarda müxtəlif formatlar çərçivəsində əldə olunmuş razılaşmalardan Ermənistan rəhbərliyi geri çəkilib. Ona görə də keçirilən görüşlərə inam kifayət qədər zəifləyib. Azərbaycan dəfələrlə bəyan edib ki, biz münasibətlərin sülh yolu ilə tənzimlənməsində maraqlıyıq və görüşə hər zaman hazırıq, amma görüş xatirinə görüş keçirilməməlidir. Keçirilən görüşlər yalnız predmetli olmalıdır və tərəflər üzərlərinə götürdüyü öhdəliklərin yerinə yetirilməsi istiqamətində real addımlar atmalıdır. Eyni zamanda bu, Ermənistanın məsuliyyətini formalaşdırmaqla yanaşı, həm də vasitəçilər üzərində də çox ciddi məsuliyyət götürmüş olur. Yəni Ermənistanla Azərbaycan arasında sülh münasibətlərinin tənzimlənməsində maraqlı olan, öz vasitəçilik imkanlarından istifadə etməyə çalışan tərəf həm də öhdəlikləri yerinə yetirməyə məcbur etməyə çalışmalıdır. Çox təəssüf ki, biz bu günə qədər bunu görməmişik. Ermənistana yönəlik hər hansı bir təzyiq və çağırış müşahidə etməmişik".

Politoloq qeyd etdi ki, belə bir şəraitdə ABŞ-ın yenidən aktivləşməsi və tərəflərin Vaşinqton formatı çərçivəsində görüşməsini təklif etməsi Amerikanın sülhpərvər mahiyyətindən irəli gəlməklə yanaşı, həm də onun üzərinə növbəti məsuliyyəti yükləmiş olur: "Vaşinqton bu məsuliyyəti anlayırmı və anlayırsa bunu yerinə yetirməyə hazırdırmı? Bax, bu bəlli deyil. Növbəti görüşdən sonra da Ermənistan üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməyəcəksə, ABŞ İrəvanı məcbur etmək üçün hansı rıçaqlardan istifadə edəcəyini bəyan etməlidir. İndiki şəraitdə isə ABŞ-ın siyasətinə təsir etmək gücündə olan Erməni Milli Komitəsinin-diaspor təşkilatlarının təsir imkanlarını zəiflətmədən ABŞ-ın rəsmi qurumlarının belə iddiada çıxış etməsi o qədər real görünmür. Bu baxımdan ABŞ tərəfindən səslənən fikirləri hələ ki real effektiv nəticə doğura biləcək bir prosesin başlanğıcı kimi qiymətləndirə bilmirəm. Eyni zamanda görüş təşəbbüsü həm də ABŞ-ın Cənubi Qafqazda Rusiya ilə apardığı mübarizənin bir elementidir. Ona görə də Rusiyanın da əks-mövqe ortaya qoyacağı və tərəflər arasında münasibətlərin tənzimlənməsində aparıcı rolunu qoruyub saxlamağa çalışacağını proqnozlaşdırıram. Hesab edirəm ki, qarşıdakı günlərdə diplomatik trafikdə müəyyən aktivləşmə müşahidə oluna bilər".

❑ **Etibar SEYİDAĞA,**
"Yeni Müsavat"

Sərkisyan Vladivostokdan mesajını aldı

Rusiya prezidentinin Uzaq Şərqdən Qarabağ və Ermənistan haqda dedikləri reavanşistləri aktivləşdirib

Ermənistanın terrorçu eks-prezidenti, Xocalı canisi Serj Sərkisyan və rəhbəri olduğu Ermənistan Respublika Partiyası (ERP) Rusiya Grezidenti Vladimir Putinin Uzaq Şərqdən Qarabağ və Ermənistan haqda verdiyi son mesajlarından sonra aktivləşib. Bunu həmin partiyanın üzvü, Sərkisyanın lideri olduğu "Şərəf duyuram" blokunun parlament fraksiyasının lideri Hayk Mamicanyanın Milli Assambleyanın tribunasından son bəyanatı da təsdiqləyir. Həmin bəyanat bir neçə gündür ki, hakimiyyətin dincliyini pozub.



Bu haqda yazan "Hraparak" bildirir ki, sosial şəbəkələrdə real və saxta istifadəçilər ERP-yə və xüsusən də deputata hücumlar edir, hakim "Vətəndaş sazişi" deputatları isə həmkarlarından hesab tələb edirlər.

Xatırladılır ki, "Mamicanyan parlamentdə jurnalistlərlə keçirdiyi brifinqdə bildirib: "İrəvan bizim hamımızın, kənarda dayanan vətəndaşların, vətənpərvərlərin zəhməti, təri və əgər Paşinyan bir axmaqlıq edərsə, qanı ilə dəyişəcək".

"Daha sonra ənənəvi parlament bəyanatları zamanı ERP-dən olan deputat Mamicanyan bəzi hərəkətlər və mümkün hakimiyyət dəyişikliyi ilə bağlı müəmmalı eyhamlar vurub. "Dediklərimin mənası odur ki, əgər Nikol Paşinyan vətənpərvərlərə atəş açmaq qərarına gəlsə, məncə, buna heç kimin şübhəsi yoxdur ki, vətənpərvərlər arasında bundan qorxan olmayacaq... Tezliklə, çağırış səslənəndə, hərəkətə keçməyin vaxtı gələcək", - deyə Hayk Mamicanyan yekunlaşdırıb"- erməni nəşri yazır.

"Əgər sizə elə gəlirsə ki, sizin siyasi qüvvənizin prezidenti martın 1-də (söhbət 2008-ci il martın 1-də S.Sərkisyanın prezident seçkilərindəki qələbəsindən sonra qanla nəticələnən qarşıdurmadan gedir-S.L.) tökərək hakimiyyətə gələ bilibsə və siz bunu ikinci dəfə edə bilərsiniz, çox məyus olacaqsınız".

"Hraparak"ın yazdığına görə, bunu isə H.Mamicanyana hakim "Vətəndaş sazişi" partiyasından olan deputat Vaahn Aleksanyan söyləyib.

V.Aleksanyan bildirib ki, Mamicanyanın hansı çağırışdan, hansı coğrafi məkandan gələcək zəngdən danışdığını da yaxşı bilirlər.

"Mənbəmiz bildirir ki, Respublika Partiyasının üzvləri İrəvan Ağsaqqallar Şurasında seçkiləri izləyəcək və hərəkətə keçmək üçün doğru məqam məhz həmin seçkilərin nəticələrindən asılı olacaq. ERP əmindir ki, Paşinyanın partiyası 50+1 səs toplamayacaq və qüvvələr nisbəti elə olacaq ki, heç bir qüvvə koalisiya yaratmayacaq, ona görə də İrəvanda siyasi böhran yaranacaq və bu, hərəkətə keçmək üçün uyğun vaxt olacaq".

Yeri gəlmişkən, Serj Sərkisyanın "Şərəf duyuram" fraksiyasındakı silahdaşları Robert Köçəryanın "Hayastan" alyansındakı həmkarlarından fərqli olaraq parlamentdəki "hökumətlə sual-cavab" iclasında iştirak etməyiblər", - deyə erməni nəşri sonda vurğulayır.

❑ **"Yeni Müsavat"**

Yeni dərs ili başladı

135 min uşaq bu gün ilk dəfə birinci sinfə gedir

Bu gün yeni dərs ili başlayır. 2023-2024-cü tədris ilində ölkə üzrə ümumtəhsil məktəblərində 1600 000 şagird təhsil alacaq. Elm və Təhsil Nazirliyindən "Yeni Müsavat"a verilən məlumata görə, 114 484 nəfər məktəbəqədər təhsilə cəlb ediləcək. 135 min uşaq birinci sinifdə təhsil alacaq. 80 273 uşaq isə məktəbəhazırlıq qruplarında tədrisə cəlb olunacaq.



Yeni tədris ilində Bakı Şəhəri üzrə Təhsil İdarəsinin (BŞTİ) tabeliyində fəaliyyət göstərən ümumi təhsil müəssisələri üzrə isə ümumilikdə, 481 131 şagird təhsil alacaq. Qurumdan qəzetimizə verilən məlumata görə, BŞTİ-nin tabeliyindəki ümumi təhsil məktəblərinin I sinfində 40 500, IX sinfində 41 016, X sinfində 31 300, XI sinfində 26 887, XII sinfində 130 şagirdin təhsil alacağı proqnozlaşdırılır. BŞTİ-nin tabeliyində fəaliyyət göstərən məktəbəqədər təhsil müəssisələrinə 34 995 uşağın, ümumi təhsil müəssisələrinin məktəbəhazırlıq qruplarına isə 23 000-ə yaxın beşyaşlı cəlb olunacaq. 2023-2024-cü tədris ilində BŞTİ-nin tabeliyində fəaliyyət göstərən ümumi təhsil müəssisələrində 28 498 müəllim, məktəbəqədər təhsil müəssisələrində isə 4 375 tərbiyəçi-müəllim çalışacaq. BŞTİ-nin tabeliyində 310 ümumi təhsil məktəbi, 3 xüsusi tipli ümumi orta məktəb və 5 əyani-qiyabi axşam məktəbi olmaqla, cəmi 318 məktəb, 344 məktəbəqədər təhsil müəssisəsi fəaliyyət göstərir.

Onu da qeyd edək ki, 2023/2024-cü tədris ili ölkənin bütün tipdən olan ümumi təhsil müəssisələrində (beynəlxalq səviyyədə akkreditasiya olunan təhsil proqramlarının tədrisi istisna olmaqla) 15 sentyabrda başlayıb, 14 iyunda başa çatacaq. Bu barədə yeni tədris ilinin başlanması barədə elm və təhsil naziri Emin Əmrullayevin müvafiq əmrində bildirilib. Əmrdə qeyd olunub ki, 2023/2024-cü tədris ilində ümumi təhsil müəssisələrində ilk dərs "Heydər Əliyev Azərbaycanın xilaskarı və qurucusudur" mövzusuna həsr olunacaq. Eyni zamanda Azərbaycan dilinin dövlət dili kimi tədrisinə nəzarətin gücləndirilməsi məsələsi də əmrdə yer alıb. Əmrin icrasına nəzarət isə nazir müavini Həsən Həsənliyə həvalə olunub.

Bu il yeniliklərdən biri məktəbli formaları ilə bağlıdır. Belə ki, artıq yeni dərs ilindən bütün ölkə üzrə məktəblərdə yeni məktəbli formalarının tətbiqinə başlanılır. Nazirlər Kabinetinin qərarına əsasən, 2023-2024-cü tədris ilində ölkənin hər bir ümumi təhsil müəssisəsi üzrə vahid məktəbli geyimi tətbiq ediləcək. Həmin qərarda məktəblər tərəfindən 4 cür geyim formasından birinin seçilməsi nəzərdə tutulur. Ötən tədris ilində hər bir ümumi təhsil müəssisəsinin Pedaqoji Şurası bununla bağlı müvafiq qərar qəbul edib.

Bu il - 2023-cü ildə birinci sinfə gedənlərin sayında kəskin azalma var. Aparılan təhlillər göstərir ki, 2019-2020-ci tədris ilində dövlət əyani ümumi təhsil müəssisələrində 1-ci sinfə gedən uşaqların sayı 159644 nəfər olub. 2020-2021-ci dərs ilində ölkənin bütün ümumi təhsil müəssisələrinin I siniflərinə 156328 uşaq gedib. 2021-2022-ci tədris ilində respublikanın ümumi təhsil müəssisələrinin 1-ci sinfinə 153822, 2022-2023-cü tədris ilində isə 152 minə yaxın uşaq qədəm qoyub. Bu statistik rəqəmlər 1-ci sinfə gedən uşaqların sayında ilbəil azalma olduğunu göstərir. **Tanınmış pediatr Vaqif Qarayev də bununla bağlı narahatlığını ifadə edib. O deyib ki, ölkəmizdə 1-ci sinfə gedən uşaqların sayı ilbəil azalır:** "2019/2020-ci ildə 159 644 uşaq, 2022/2023-cü ildə - 152 000 uşaq, 2023/2024-cü ildə isə 135 000 uşaq birinci sinfə gedəcək. Rəsmi rəqəmlər düşündürməyə əsas verir, bu araşdırılmalıdır. Uşaq sayında kəskin azalma var. Maraqlıdır ki, əhalinin ümumi artımında müsbət dinamika müşahidə olunur, amma uşaq sayı azalır. Bu məsələ köklü araşdırılmalıdır. 11 ildən sonra 135 000 uşağın demək olar ki, böyük əksəriyyəti ali məktəblərə ərizə yazacaq. Niyə?!"

❑ **Afaq MİRAYİQ,**
"Yeni Müsavat"

Teatrlar yeni mövsümə köhnə repertuarla başlayır

Ssenari yoxdur, yoxsa yeni ssenariyə ayrılacaq maddi vəsait?

Teatrlar artıq yeni mövsümü açıq elan ediblər. Yeni mövsümdə olacaq repertuarları izləyəndə aydın olur ki, bu dəfə də teatrlar köhnə ənənəsinə sadiq qalaraq, köhnə repertuarla tamaşaçıların qarşısına çıxacaq. Yəni bu dəfə də teatrsevərlər yeni tamaşaların üzünə həsrət qalacaq.



Məsələn, ölkənin ana teatrı sayılan Akademik Milli Dram Teatrı bu dəfə də sentyabrın 15-də mövsümü İlyas Əfəndiyevin "Hökmdar və qızı" pyesi əsasında yazılmış "Qarabağnamə" əsəri ilə açacaq. Teatr illərdir ki, mövsümü yalnız bu əsərlə açır, Qarabağ işğal altında olanda da, işğaldan azad ediləndə də. Əlbəttə ki, İlyas Əfəndiyevin "Qarabağnamə"si möhtəşəm əsərdir. Əsər XVIII əsrdə Qarabağ xanlığının mərkəzi olan Şuşada baş vermiş tarixi hadisələrdən və Qarabağ hökmdarı İbrahim xanın ictimai-siyasi, ailə-məişət həyatından bəhs edir. O dövrdə xanlıqlara bölünmüş Azərbaycana yiyələnmək istəyən Rusiya və İranla siyasi əlaqələri və dostluq münasibətlərini bərqərar etməyə çalışan İbrahim xan erməni fitnəkarlığının qurbanı olur. Tamaşanın quruluşçu rejissoru Xalq artisti Məhrahim Fərzəlibəyov, quruluşçu rəssamı İsmayıl Məmmədov, səhnə alan aktyorlar Firəngiz Mütəllimova, Rafiq Əzimov, Səidə Quliyeva, Hacı İsmayılov, Kazım Abdullayev və digərləridir. Amma Qarabağ mövzusunda və yaxud Zəfərimizlə bağlı yeni ssenari səhnələşdirilə bilməzdimi? Maraqlıdır, ssenari yoxdur, yoxsa yeni ssenariyə ayrılacaq maddi vəsait?

Teatrın digər sentyabr tamaşaları bunlardır: C.Məmmədquluzadənin "Ölülər", "Dəli yığıncağı", M.F.Axundzadənin "Sərgüzəşti-vəziri-xani-Lənkəran", İ.Əfəndiyev "Xurşidbanu Natəvan", Q.Çoxeli "Kükənarlara məktub", Ə.Əmirli "Ah, bu uzun sevda yolu", Ç.Aytmatov "Manqurt", E.Flippo "Filumena Marturano", C.Zeynalov "Şükriyyə" əsərləri.

Azərbaycan Dövlət Akademik Musiqili Teatr da mövsümü köhnə tamaşalarla açacaq. Belə ki, teatr sentyabrın 16-da mövsümü Üzeyir Hacıbəylinin "Ər və arvad" tamaşası ilə açacaq. Teatrın sonrakı sentyabr tamaşaları isə bunlardır: "O olmasın, bu olsun", Tofiq Quliyevin yubileyinə həsr olunmuş "Bəxtiyar" iki hissəli komediya, Fikrət Əmirovun musiqiləri əsasında "999-cu gecə", Elçinin hekayələri əsasında "Baladadaşın toy hamamı", S.Rüstəmovun "5 manatlıq gəlin" əsəri.

Paytaxtın digər populyar teatrlarından biri olan Gənc Tamaşaçılar Teatrı isə bu il mövsümü yeni, İlqar Fəhminin "Balaca kişilər" tamaşası ilə açacaq. Sonrakı digər tamaşalar isə A.Tolstoyun "Buratinonun macəraları", Şekspirin "Romeo və Cülyetta", Anım Gününə həsr olunan, Ü.Heydərovanın "İnanıram", P.Züskindin "Kontrabas", P.Cullifordun "Şirinlər", Şekspirin "III Riçard" əsərləridir.

Bəs səbəb nədir? Teatrlar niyə yeni əsərlərə, dramaturqlara müraciət etmir?

Mövzu ilə bağlı teatrşünas Rübabə Rzayeva "Yeni Müsavat"a danışıb: "Təbii ki, bu sualı teatrlar verib, cavab almaq lazımdır. Çünki bu, çox vacib məsələdir. Belə ki, repertuar məsələsi illərdir ki, problem olaraq qalır. Üstəlik, bu problem yeni əsərlərin səhnəyə qoyulması ilə bağlı deyil, məsələn, bəzən görürük ki, Akademik Milli Dram Teatrına Musiqili Teatrın əsərini gətirib, səhnələşdirirlər. Halbuki hər teatrın özünə məxsus estetikası var və əvvəllər bu məqamlar qorunurdu, indi isə qorunmur.

Bir çox teatrlar tamaşaçını cəlb etmək üçün yüngül əsərlərə üstünlük verməyə başlayıb. Məsələn, çox təəssüf ki, Rus Dram Teatrında əsasən bu cür tamaşalar səhnələşdirilir.

Əlbəttə ki, bu məsələ təkcə teatrdan deyil, ümumi abu-havadan asılıdır. Təkcə teatrlar deyil, televiziyalar da daha çox şouya, əyləncələrə üstünlük verir. Yəni izləyici kütləsi toplamaq üçün müxtəlif yollara əl atırlar ki, bu da həmin yollardan biridir.

Repertuar dəyişəndə həmin repertuara uyğun aktyorlar, rejissor, yeni dekorasiya olmalıdır ki, bütün bunların da hamısı maddi vəsait tələb edir. Belə başa düşürəm ki, bu, az vəsaitlə daha çox pul qazanmaq istəyindən irəli gələn məsələdir. Amma böyük yanlışdır və teatrın inkişafına çox pis zərbə, balta vurur. Nə qədər səhnəyə yeni, maraqlı tamaşalar gəlsə, teatr da bir o qədər çox inkişaf etmiş olar və daha çox qazanc əldə edilər. Yəni tamaşaçı yeni tamaşaya gəlməyə can atacaq. Görünür ki, işləmək, özlərinə əziyyət vermək istəmir, yeni dramaturqlarla əməkdaşlıq etməkdən çəkinirlər.

Məsələn, Akademik Milli Dram Teatrı illərdir ki, mövsümü "Qarabağnamə" əsəri ilə açır. Bu əsərə nə qədər baxmaq olar? Əlbəttə ki, Qarabağ hamımızın gözünün işığıdır, çox sevinirik ki, işğaldan azad olundu, amma burada söhbət sənətdən gedir. Qarabağla bağlı başqa əsəri səhnəyə qoymaq olardı. Təsəvvür edin, illərdir ki, eyni əsər, eyni aktyorlar, eyni estetika, ritorikadır. Əlbəttə ki, tamaşaçı bu eynilərdən bezəcək, yorulacaq və teatra gəlməyəcək. Köhnə klassik əsərlərimiz var ki, bu günlə səsləşir, çox maraqlıdır. Amma onları yeni formatda qoymaq, təqdim etmək lazımdır".

❑ **Xalidə GƏRAY,**
"Yeni Müsavat"

YENİ MÜSAVAT
N 164 (8300) 15 sentyabr 2023

Naxçıvanda taksi qadağası ilə bağlı ziddiyyətli xəbərlər - ancaq "NazLifan"la...

Bəzi sürücülər iddia edir ki, Talıbov dövründəki sərt qadağalar geri qayıdır, bəs bunu təkzib edənlər nə deyir?



Naxçıvanda taksi xidməti üçün əvvəllər tətbiq olunan sərt qaydalar geri qayıdır. Bu qaydalara görə, Naxçıvanda taksi sürmək üçün ilk növbədə yerli istehsal olan "NazLifan" avtomobilin olmalıdır. Çünki bundan sonra taksi lisenziyası yalnız bu avtomobillərlə veriləcək. Lisenziyasız taksi xidməti göstərənləri isə sərt cəzalar gözləyir. Lakin şərtlər bununla bitmir. Taksi sürücüləri xüsusi uniforma geyinməli və hər gün üzlərini qırxmalıdırlar. Bu qaydaları pozanların lisenziyası əlindən alınacaq, onlar cərimələnəcək. Bu haqda dia.az saytı "Gündəlik Naxçıvan"a istinadən yazır. Bildirilir ki, bu məlumatları taksi sürücüləri özləri verib.

Bildirilir ki, taksi xidməti göstərmək üçün yuxarıda sadaladığımız ağır şərtlərin hamısı Vasif Talıbovun zamanında tətbiq olunurdu. Naxçıvandakı siyasi dəyişiklikdən sonra bu şərtlər aradan qaldırılmış və taksi xidməti qaydaları Bakıya uyğunlaşdırılmışdı. Sürücülər bildirir ki, avqust ayının sonlarından başlayaraq, yol polisləri reydlər keçirib, yeni qaydalara uymayanları idarəyə aparırlar. Taksi sürücüləri bildirir ki, onlara hələlik xəbərdarlıq olunub.

Naxçıvan MR DYP-dən sürücülərin ictimailəşən iddialarına hələ ki reaksiya yoxdur.

Mövzu ilə bağlı Naxçıvanda fəaliyyət göstərən bir neçə taksi sürücüsü ilə söhbətləşdik. Bildirdilər ki, əvvəlki qaydalar yenidən qayıdıb. Taksi fəaliyyəti ilə məşğul olanların lisenziya alması məsələsi yenidən tələb şəklini alıb. "NazLifan" avtomobili tələbi sərt şəkildə qoyulmasa da, yaxınlarda belə bir tələbin olacağı da istisna deyil. Belə xəbərlər dolaşır ki, oktyabrdan qadağalar sərt şəkildə tətbiq olunacaq. İndi isə qadağalar olsa da, hələ ki, tam şəkildə, Vasif Talıbovun Naxçıvana rəhbərliyi müddətdə olduğu kimi deyil. Xüsusi geyim forması, üzün hər gün qırxılması kimi tələblər hələ ki yoxdur.

Həmsöhbətimiz adının açıqlanmamasını dönə-dönə xahiş edir. Deyir ki, əks halda, problem yaşaya bilər. Digər həmsöhbətimiz də taksi fəaliyyəti ilə ailə saxlayır. Deyir ki, Naxçıvanda rəhbərli dəyişəndən sonra sərt qadağalar aradan qalxıb. İndi isə Vasif Talıbovdanqalma qadağaların bəziləri geri qayıdır. Taksi fəaliyyəti ilə bağlı da keçmişdə olan qadağalar da tədricən tətbiq edilməyə başlayır. Həmsöhbətimiz deyir ki, Vasif Talıbovun dövründə taksi fəaliyyəti ilə məşğul olanlar Naxçıvanda zavodda yığılan avtomobil "NazLifan" almalı idilər. Bundan sonra həmin şəxsə taksi fəaliyyəti üçün lisenziya verilir, hər gün üzünü qırxmaq, əyninə forma geymək kimi tələblər qoyulurdu. Kimsə "NazLifan" markası olmayan avtomobilinə lisenziya ala bilmirdi. "NazLifan" olmayan avtomobillərə lisenziya verilməsi qadağan olunmuşdu. İndi də eyni durumdur. Lisenziya "NazLifan"ı olmayanlara verilmir. Taksi işarəsi üzərinə qoyub maşın sürmək də olmur. Polis saxlayır, cərimələyir. "Oğurluq edirmiş kimi taksi sürürük ki, ailəmizə bir tikə çörək qazana bilək. Bununla belə, hələ ki birtəhər başımızı salamat saxlaya bilirik, ümid edirik ki, bizlərə də çörək qazanmağa imkan veriləcək", - deyə mənbə bildirib.

Mehman adlı taksi sürücüsü isə hazırkı durumdan razılıq edir. Deyir ki, əvvəl onlardan xüsusi forma geyinməyi tələb edirdilər. İndi belə bir tələb yoxdur. Digər qadağalar, o cümlədən ancaq bir rayondan sərnişin götürmək, geri qayıdarkən boş maşın sürmək, yalnız Naxçıvan istehsalı olan maşın sürmək və s. kimi məhdudiyyətlər də yığışdırılıb. Polislərin də boş yerə taksi sürücülərini narahat etmədiyini bildirdi.

Maraqlıdır ki, bir neçə gün əvvəl Naxçıvanda yeni fəaliyyətə başlayan *8777 taksi şirkətinə qarşı təzyiqlərin olması ilə bağlı bəzi sosial şəbəkə hesablarında məlumatlar yayılmışdı. Naxçıvan MR DİN-in mətbuat xidmətindən APA-nın sorğusuna cavab olaraq bildirilib ki, *8777 taksi şirkətinin muxtar respublika üzrə təmsilçisi kimi özünü təqdim edən V.Babayev barəsində daxil olan çoxsaylı müraciətlər əsasında onun digər taksi sürücülərinə qarşı qeyri-qanuni hərəkətlər törətməsi müəyyən edilib. Fəaliyyət sahəsi üzrə zəng qəbul edib yönəltdiyi taksi sürücülərinin şikayətləri əsasında onun barəsində toplanmış materiallar baxılması üçün məhkəməyə göndərilib və məhkəmənin qərarı ilə onun barəsində 25 sutka inzibati həbs tənbeh tədbiri tətbiq olunub. Bundan başqa, şirkətin rəhbəri Həsrət Paşayevin Naxçıvanda fəaliyyət göstərən taksi sürücülərini təhdid etməsi ilə bağlı əlavə müraciətlər də daxil olub. Sürücülər həmin səsli təhdid ismarışlarını polis orqanına təqdim ediblər. Hazırda araşdırmalar davam etdirilir.

Yada salaq ki, Naxçıvanda taksi qadağaları 2022-ci ilin dekabrında aradan qaldırılmışdı. Ötən il dekabrın 28-də Naxçıvan Muxtar Respublikasının mərkəzi Naxçıvan şəhərində taksi sürücülərinin Ali Məclisinin binası qarşısında aksiya keçirmişdilər. Bundan sonra qadağalar aradan qalxmışdı. 10 ilə yaxın davam edən qadağalar müddətində Naxçıvanda istənilən adam taksi sürücüsü işləyə bilməzdi. Vasif Talıbovun dövründə taksi maşınları yalnız "NazLifan" markalı avtomobillər olmalı idi. Başqa maşınlara taksi işləməyə icazə vermirdilər. Etiraz edən kimi maşınları cərimə meydançasına aparırdılar, lisenziyamızı isə ləğv edirdilər. Sürücülər acından ölməmək üçün məcbur olub qadağalarla razılaşırdı. O dövrdə 20 min manat satış qiyməti olan "NazLifan" markalı avtomobilləri 35 min manata satırdılar. Həmin avtomobillər Naxçıvan MR-də qurulan zavodda yığılır.

❑ **E.MƏMMƏDƏLİYEV,**
"Yeni Müsavat"



Yanvarda pensiyalar nə qədər artırılacaq?

"Bu ilin ilk 7 ayında Azərbaycanda orta aylıq nominal əmək haqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 11,3 faiz artaraq 925,3 manat olub".

Bakupost.az xəbər verir ki, bunu iqtisadçı deputat Vüqar Bayramov deyib. O bildirib ki, orta aylıq əmək haqqındakı artım faizi növbəti yanvar ayında pensiyaların indeksasiyası zamanı istifadə edilən göstəricidir:

"Yəni bu il ərzində orta maaş nə qədər artacaqsa, pensiyalarda artım da o qədər olacaq. Hazırda indeksləşmədə iki göstəricidən (orta aylıq əmək haqqının artım səviyyəsi və inflyasiya göstəricisi) istifadə edilir. Pensiya məbləği əvvəlki ildə orta aylıq nominal əmək haqqında artım tempinə, pensiya kapitalı isə inflyasiya göstəricisinə indeksasiya olunur. Bu ildən tətbiq olunan vahid indeksasiya sistemi bütün əmək pensiyası alan vətəndaşlarımızın pensiya məbləğlərinin hər il yanvar ayında əvvəlki il üzrə orta aylıq əmək haqqındakı artım faizinə uyğun artırılmasını nəzərdə tutur".

Deputat qeyd edib ki, bu ilin 7 ayındakı tendensiya saxlanacağı halda gələn ilin yanvar ayında pensiyalar təxminən 11 faizə indeksasiya olunacaq:

"Təbii ki, daha dəqiq rəqəm 2024-cü ilin yanvar ayında elan olunacaq. Bütün hallarda, orta maaşda artım tempi yüksəldikcə, pensiyalarda daha çox artımlar müşahidə olunacaq. Bu baxımdan, orta aylıq əmək haqqındakı artım faizi yalnız ölkə iqtisadiyyatında muzdla çalışan işçilər üçün deyil, həmçinin pensiyaçılar üçün də əhəmiyyətlidir".

Sahələr üzrə orta maaş məbləği

2023-cü il avqustun 1-nə muzdlu işçilərin orta aylıq nominal əmək haqqı 925,3 manat göstərilib. Novator.az bildirir ki, Dövlət Statistika Komitəsi iqtisadi fəaliyyət növlərini orta maaşa görə belə sıralayıb:

mədən sənayesi - 3429,8 manat;

maliyyə və sığorta fəaliyyəti - 2411,1 manat;

peşə fəaliyyəti, elmi və texniki fəaliyyət - 1554,8 manat;

informasiya və rabitə - 1514,7 manat;

dövlət idarəetməsi və müdafiə; sosial təminat - 1322,7 manat;

nəqliyyat və anbar təsərrüfatı - 1239,4 manat;

tikinti - 1043,2 manat;

elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı - 947,4 manat;

daşınmaz əmlakla əlaqədar əməliyyatlar - 881,7 manat;

emal sənayesi - 840,5 manat;

əhaliyə səhiyyə xidməti və sosial xidmətlərin göstərilməsi - 803,1 manat;

istirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət - 735,6 manat;

turistlərin yerləşdirilməsi və ictimai iaşə - 716,7 manat;

təhsil - 711,8 manat;

su təchizatı, tullantıların təmizlənməsi və emalı - 691,1 manat;

ticarət; nəqliyyat vasitələrinin təmiri - 620,4 manat;

inzibati və yardımçı xidmətlərin göstərilməsi - 551,1 manat;

kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq - 544 manat;

digər sahələrdə xidmətlərin göstərilməsi - 1074,5 manat.

Azərbaycanda minimum aylıq əmək haqqı 345 manatdır.

2023-cü il sentyabrın 1-nə 4 milyon 948,9 min nəfər məşğul şəxs, 235,9 min nəfər işsiz qeydə alınıb.

YENİ MÜSAVAT
N 164 (8300) 15 sentyabr 2023

Azərbaycan narının "dərdləri": xarici bazar, daha nələr...

Emal gücünü artırmaq bir çox problemləri aradan qaldırmağa imkan verər

Azərbaycanın qeyri-neft sektorunun əsas prioritet istiqaməti olan kənd təsərrüfatının ən ciddi problemlərindən biri ixrac bazarlarının məhdudluğudur. Kənd təsərrüfatı istehsalı artdıqca, bu problem daha da kəskinləşir. Belə ki, aqrar ixracımızın 90 faizdən yuxarısı yalnız bir bazara - Rusiyaya istiqamətlənib. Uzun illərin təcrübəsində özünü etibarlı tərəfdaş kimi tanıda bilməyən bir ölkənin bazarından asılılıq Azərbaycanın kənd təsərrüfatı üçün ən böyük problem olaraq qalır. Bu problemin aradan qaldırılması, ixrac bazarlarının diversifikasiyası çox ləng gedir, bir sıra məhsullar üzrə, ümumiyyətlə, durğun vəziyyətdədir.



İxracında Rusiyadan asılı olduğumuz məhsullardan biri də nardır. Rusiyanın Ukraynaya hücumu nar istehsalçılarını ikinci böyük bazardan məhrum edib. **Azərbaycan Nar İstehsalçıları və İxracatçıları Assosiasiyasının (ANİİA) İdarə Heyətinin sədri Fərhad Qaraşovun** "Report"a dediyinə görə, Azərbaycan ötən il 31 milyon 564 min ABŞ dolları dəyərində 24 min ton nar ixrac edib: "İndiyədək bizim ənənəvi ixrac bazarımız Rusiya və Ukrayna olub. Lakin hazırda Ukrayna bazarını tamamilə itirmişik. Ona görə də yerli ixracatçılar Azərbaycan narlarına böyük tələbat olan Rusiya bazarına fokuslanıb. Lakin Rusiya rublunun dəyərdən düşməsi Azərbaycan məhsullarının bu bazarda ucuzlaşmasına gətirib çıxara bilər".

F.Qaraşov qeyd edib ki, Azərbaycan şirkətləri hazırda Almaniyaya nar ixrac edir: "Ötən il Almaniya vətəndaşları olan türklər Azərbaycana gəlmişdilər, onları nar bağlarımızla tanış etdik. Nar ixracı ilə bağlı danışıqların aparılması gözlənilir".

Assosiasiya rəhbərinin sözlərinə görə, bir müddət əvvəl nar ixracı ilə bağlı Çindən gələn iş adamları ilə görüş keçirilib: "Çin təqribən hər il 10 min tona yaxın Azərbaycandan nar idxalını planlaşdırır. Əfsus ki, Çinlə Azərbaycan arasında Qida təhlükəsizliyi haqqında Anlaşma yoxdur. Bu, bizə ixracda problem yaradır. Ölkələr bununla bağlı tez razılıq əldə etsə, Çin bazarına nar ixracına başlaya bilərik".

O bildirib ki, BƏƏ və Qətərə nar ixracı həyata keçirilib: "Təəssüf ki, ixracatçılarımız böyük ziyanla üzləşirlər, çünki həmin bazarlarda Hindistan öz yerini möhkəmləndirib. Halbuki Azərbaycan narları Hindistan narları ilə müqayisədə daha keyfiyyətlidir. Hindistan narları ucuz olduğu üçün biz həmin ölkələrə nar ixracını artıra bilmirik. Nar yaş meyvə olduğuna görə müəyyən müddətdən sonra keyfiyyətini itirir".

F.Qaraşov Azərbaycan narını Qazaxıstan bazarına çıxışı üçün də maraq göstərildiyini vurğulayıb: "Qazaxıstanla müəyyən danışıqlar aparılır. Bu ölkəyə iki il əvvəl tədarük həyata keçirilib. Hazırda Qazaxıstan bazarında daha çox Özbəkistan narları yer tutub".

Qeyd edək ki, F.Qaraşov ötən ilin payızından Ukraynaya ixracın dayanma təhlükəsi barədə danışaraq, ixracatçılara dövlət səviyyəsində dəstək verilməsinin zəruri olduğunu bildirmişdi. Bu ilin martında Kənd Təsərrüfatı Nazirliyi, Dövlət Gömrük Komitəsi, Qida Təhlükəsizliyi, Kiçik və Orta Biznesin İnkişafı (KOBİA), İxracın və İnvestisiyaların Təşviqi (AZPROMO) agentliklərinin, Nar İstehsalçıları və İxracatçıları Assosiasiyasının əməkdaşlarının iştirakı ilə onlayn görüş keçirilib. Görüşdə ixracın şaxələndirilməsi məqsədilə narın yeni ixrac bazarlarına çıxarılması üçün tələb olunan keyfiyyət standartları, agentlik tərəfindən göstərilən dəstək tədbirləri, xüsusilə sertifikatlaşma və korporativləşmə ilə bağlı məlumat verilib, fermerlərin sualları cavablandırılıb. Lakin reallıq göstərir ki, bu görüşün heç bir faydası olmayıb və nar ixracatçıları Ukrayna bazarını tam itiriblər. Bunu 2023-cü ilin birinci yarısındakı ixracdan da görmək mümkündür. Belə ki, Dövlət Statistika Komitəsinin məlumatına əsasən, bu ilin 6 ayında 8 milyon 81,44 min dollarlıq 6208,39 ton nar ixrac olunub. Orta ixrac qiyməti 1 ton üçün 1302 dollar təşkil edib. Bunun 7 milyon 683,84 min dollarlıq 5509,55 tonu Rusiyaya satılıb. Şima qonşuya ixracın 1 tonu 1394,6 dollara reallaşıb. Ötən il narın 1 tonunun ixrac qiyməti 1352,6 dollara bərabər olub. Bu isə cari ildə Rusiyadan kənara ixracın kəskin aşağı qiymətə reallaşması deməkdir.

Hazırda Azərbaycan hökuməti intensiv və sığortalanmış nar bağlarına görə fermerlərə subsidiya verir. Kənd Təsərrüfatı Nazirliyi Aqrar Subsidiya Şurasının qərarına əsasən, 1 hektara minimum 450 ədəd tingin əkildiyi damcı suvarma sistemi ilə təmin olunmuş nar bağına 2022-ci il sentyabrın 1-dən 2023-cü il mayın 31-dək salındığı halda hər hektara 3000 manat, 2020-ci ildən bəri salınan bağlar üzrə 730 manat, 2020-ci ildən əvvəl salınmış bağlar üzrə 250 manat subsidiya ödənilir. Göründüyü kimi, dövlət intensiv suvarma sisteminin tətbiqini stimullaşdırmaq üçün subsidiyalaşmada diferensial yanaşma tətbiq edir. Yeri gəlmişkən, damcı suvarma sisteminin alınıb quraşdırılmasına də dövlət dəstəyi nəzərdə tutulur. Belə sistemlərin dəyərinin 40 faizi dövlət tərəfindən qarşılanır, qalan 60 faiz üçünsə güzəştli kredit ayrılır. Lakin bir çox kiçik istehsalçılar bu dəstəkdən yararlana bilmirlər.

İxrac coğrafiyasının genişlənməsi yolunda əsas problemlərdən biri Azərbaycanın Avropa Birliyi ilə əməkdaşlıq sazişinin olmaması, Ümumdünya Ticarət Təşkilatına üzvlüyün baş tutmamasıdır. Eyni zamanda potensial ixrac bazarları olan ölkələrə ixracı asanlaşdırılan dövlətlərarası sənədlərin qəbulunda da ciddi ləngimə var. F.Qaraşovun dediklərindən aydın olur ki, əsas potensial bazarlardan biri olan Çinə ixrac məhz bu səbəbdən baş tutmur. Belə bir vəziyyətdə əsas çıxış yolu narın emalını artırmaq və emal məhsullarının ixracına köklənməkdir. Hazırda Azərbaycanda nardan emal yolu ilə müxtəlif məhsullar əldə edilir: nar şirəsi, nar konsentratı, narşərab, nar turşusu, nar çaxırı, limonad, kompot, nar yağı və s. Bu məhsulların bir çoxunun Avropa, ABŞ, Körfəz ölkələrinə ixracı kiçik həcmlərlə də olsa həyata keçirilir.

Azərbaycanda nar məhsullarının istehsalı ilə məşğul olan 3 böyük müəssisə fəaliyyət göstərir. Bunlardan birincisi "Aznar"dır. Sovet dövründən Göyçayda fəaliyyət göstərən zavodun bazasında yaradılan müəssisənin 2 min hektardan yuxarı nar bağı var. "Aznar" "Grante" adı altında məhsullar istehsal edir. Müəssisənin məhsulları orqanik hesab olunur. 2016-cı ildə Almaniyanın "Agreco" sertifikatlaşdırma şirkətinin müvafiq sertifikatını alıb.

Ağsu rayonunda yerləşən "Az-Granata" MMC-nin ixracatında əsas yeri nar şirəsi və nar konsentratı tutur. MMC öz məhsullarının dünyanın 20-dən artıq ölkəsinə ixrac edildiyini bildirir.

Biləsuvar rayonunda yerləşən "Azərsun Kənd Təsərrüfatı Məhsulları" MMC 2012-cü ildən "Saville" nar şirəsi məhsullarının istehsalına başlayıb. Fabrikin 310 hektar sahədə salınmış nar bağları var. MMC bəyan edir ki, "Saville" nar şirələri NFC şirə kateqoriyasına aid olaraq, soyuq sıxma üsulu ilə istehsal olunaraq artıq 40-dan çox ölkədə istehlakçıların etibarını qazanıb.

Dövlət Statistika Komitəsinin xarici ticarət statistikasında nar məhsullarının ixracı ayrılıqda göstərilmədiyinə görə ixracın coğrafiyası və dəyəri barədə hansısa məlumat əldə etmək mümkün olmadı. Lakin təcrübə göstərir ki, hər hansı məhsulun xammal deyil, emal olunaraq satılması daha çox gəlir əldə etməyə imkan verir.

Onu da qeyd edək ki, 1 litr nar şirəsi istehsal etmək üçün 2,20 kq təzə nardan istifadə olunur. Bir litr narşərab almaq üçün isə 15 kq nar lazımdır.

Ölkədə istehsal olunan 185 min ton civarında narın ən yaxşı halda 30 min tonu ixrac olunur. Qalan həcmlərin emalı üçün güclər yaradılarsa, bu, nar istehsalının və istehsalçıların qazancının daha da artmasına, həmçinin ixrac gəlirlərinin çoxalmasına gətirib çıxarar...

❑ **Dünya SAKİT,**
"Yeni Müsavat"

"Nar" beynəlxalq mükafata layiq görüldü



"Nar"ın sosial layihəsi Beynəlxalq İctimaiyyətlə Əlaqələr Assosiasiyası tərəfindən "Korporativ məsuliyyət" istiqamətində ən uğurlu layihə olaraq "Qızıl Dünya Mükafatı"na layiq görüldü.

"Nar"ın mükafata layiq görülən layihəsi - "Azərbaycan işarə dilində ilk elektron lüğəti - jestdili.az ttps://jestdili.az/" 30 mindən çox nitq və eşitmə məhdudiyyətli soydaşımızın ana dilində jest dilini öyrənmək imkanı yaradır. Elektron lüğətdə 5000-dən çox sözün foto və video təsvirləri toplanıb. Jestdili.az resursundan istifadə etməklə nitq və eşitmə məhudiyyətli şəxslər və onların yaxınları heç yerə getmədən və müəllim olmadan, onlayn qaydada jest dilini öyrənə bilir.

Qeyd edək ki, Qızıl Dünya Mükafatının (GWA - Golden World Award) bu il 200-dən çox finalçısı seçilib və layihələr 39 nəfərlik beynəlxalq səviyyəli peşəkar münsiflər heyəti tərəfindən dəyərləndirilib. "Nar" ilə yanaşı, qaliblər arasında Türk Telecom, Shell, Toyota, SOCAR Türkiye, Hyundai, MasterCard kimi dünya miqyaslı şirkətlərin layihələri müxtəlif nominasiyalar üzrə eas aeui o. "Nar" yüzlərlə şirkətlərin içərisindən qalib seçilərək bu mükafata layiq görülən ilk Azərbaycan şirkəti oldu.

"Nar"ın Korporativ Ünsiyyət departamentinin direktoru Əziz Axundov ictimaiyyətlə əlaqələr sahəsi üzrə ən nüfuzlu mükafatın Azərbaycanı təmsil edən şirkət tərəfindən qazanılmasından qürur duyduğunu bildirib: "Eşitmə və nitq məhdudiyyətli şəxslər üçün həyata keçirdiyimiz sosial layihələrimiz onların həyatlarının müsbətə doğru dəyişməsi və inklüziv cəmiyyət yaratmağımız baxımından xüsusi əhəmiyyət kəsb edir. Həyata keçirdiyimiz təşəbbüslərin beynəlxalq səviyyədə tanınması və mükafata layiq görülməsi bizim doğru yolda olduğumuzu göstərir."

Beynəlxalq İctimaiyyətlə Əlaqələr Assosiasiyası (IPRA ttps://www.ipra.org, International Public Relations Assosication) 1955-ci ildə bu sahənin peşəkarlarını birləşdirən qlobal əməkdaşlıq platforması kimi təsis edilib. Assosasiya 1983-cü ildən BMT və alt qurumları ilə sıx əməkdaşlıq edir və layihələri qiymətləndirərkən BMT-nin Davamlı İnkişaf Hədəflərini də (SDG ttps://sdgs.un.org/goals - Sustainable Development Goals) əsas götürür.

"Nar" BMT Qlobal Sazişinə qoşulmuş ttps://www.nar.az/news-details/nar-bmt-nin-dayanqli-inkisaf-meqsedlerini-destekleyen-qlobal-sazisine-qosuldu/ ilk Azərbaycan şirkəti olaraq, sosial məsuliyyət strategiyasını bu hədəflərə uyğun olaraq qurur. Jest dili layihəsi də BMT-nin inklüziv təhsil hədəfinə ttps://sdgs.un.org/goals/goal4 uyğun olaraq həyata keçirilib. Layihə "Karlara Dəstək" və "Regional İnkişaf" ictimai birlikləri ilə tərəfdaşlıq nəticəsində ərsəyə gəlib.

"Nar"ın həyata keçirdiyi bütün sosial layihələr haqqında məlumatı nar.az/projects ttps://www.nar.az/projects səhifəsindən əldə etmək olar.

"Nar" hal-hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərməkdədir. "Nar" son 4 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

YENİ MÜSAVAT
N 164 (8300) 15 sentyabr 2023

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Ekologiya və ətraf mühitin mühafizəsi

Dünən yay idi, bu gün soyuq payız - qlobal istiləşmənin fəsadları

Ekoloji fəlakət həddinə çatan məsələni necə həll etməli?

On gün bundan öncə çimərliklərə gedən insanlar on gün sonra gödəkçə geyinirlər. Yazın yay kimi, yayın payız kimi, payızın isə qarışıq hava temperaturu ilə davam etməsi. Bütün bunlar qlobal istiləşmənin əlamətləridir. Sentyabrın ilk günlərindən özünü göstərən payız havası, aramsız yağışlar, günəşin qeybə çəkilməsi həm insan psixologiyasına, həm də təbiətə öz təsirini göstərir. Necə? Fəsadları nələrdir? Qalıcı nəticələri nələrdir?



300 ildir davam edən isinmə - nələri məhv edib?

Hazırda üç yüz ildən çoxdur müşahidə olunan isinmə - yəni hava hərarətinin yüksəlməsi prosesi gedir. Cəmiyyət bunun qarşısını almağa çalışır. Lakin proses yüz illərdir sənayeləşmə, atmosferin plansız şəkildə istismarı, böyük müharibələr və digər səbəblərdən karbon emissiyasının yüksəlməsi ilə müşayiət olunmaqdadır. Beynəlxalq təşkilatların səyi nəticəsində G-20 ölkələri daxil, keçirilən qlobal tədbirlər belə qarşıya qoyulmuş 1.5 dərəcə artımın qarşısını almaqda aciz görünməkdədir. Qlobal istiləşmənin ölkəmizə təsiri quraqlıqların artması, yağıntıların qeyri-bərabər paylanması kimi hallarla özünü büruzə verir. İqlim dəyişikliyi ilkin olaraq, kənd təsərrüfatında özünü açıq şəkildə göstərməkdədir. İqlim dəyişikliyinin quraqlıqla özünü göstərməsi su qıtlığının yaranmasına səbəb olur. İçməli və suvarma suyunda gələcəkdə daha ağır problemlər yaşanmaması üçün hökumətin təməlli proqramlar hazırlaması vacibdir.

İqlim dəyişikliyinə səbəb olan ilkin amil qlobal istiləşmə nəticəsində havaların quraq keçməsi, mövsümlərin yerlərinin qismən dəyişməsidir. Digər amil isə avtomobillərin sayının çoxalmasıdır. Get-gedə artmaqda olan avtomobillərin sayında elektrik avtomobillərinə üstünlük verilməsi vacib sayılır. Ekspertlərin sözlərinə görə, ictimai nəqliyyatın fəaliyyəti genişləndirilməli və xidmət səviyyəsi yüksəldilməlidir ki, insanlar şəxsi avtomobillərdən və taksilərdən az istifadə etsinlər.

İqlim dəyişir, insanların yaşayış tərzinə də təsir göstərir - necə?

İqlimin dəyişməsi, çox ehtimal ki, "ciddi, hər yerdə və dönməz" olacaq, BMT-nin məruzəsində deyilir. Dünya Meteoroloji Təşkilatının baş katibi Miçel Jarraud deyib ki, əvvəllər insanlar "bilməməzlikdən" Yerin iqliminə ziyan vura bilərdilər, indi daha bilməməzliklə pərdələnmək mümkün deyil.

Havanın temperaturunun Selsi üzrə 2 dərəcə artması halında, Unikal ekosistemlər, məsələn, Arktikada dəniz buzu, yaxud daha isti dənizlərdə mərcan rifləri ciddi təhlükəyə uğraya bilər. Bundan başqa, temperaturun qalxması okeanların oksidləşməsinə gətirir, bu isə mərcanlar və bir çox balıq növləri üçün təhlükə yaradır. Quruda heyvanlar və bitkilər ya şimala, ya da yaylalara sarı köçməyə başlayarlar.

İqlimin dəyişməsi həmçinin insanların yaşayış tərzinə ciddi təsir edə bilər.

Ən əsas problemlərdən biri ərzaq təhlükəsizliyi ola bilər. Bəzi proqnozlara görə, 2050-ci ildə qarğıdalı, düyü və buğda məhsullarının 25 faizədək azalacağı gözlənilir.

2050-ci ildən sonra Yer üzündə əhalinin sayının 9 milyarda çatacağı halda, taxıl məhsullarının bundan da çox azalacağı ehtimal olunur. Bir çox balıq növləri şimal sularına köçəcək, bu isə tropik regionların sakinlərinin ərzaq təhlükəsizliyində əksini tapacaq. Tropiklərin bəzi hissələrində və Antarktikada, balıq ovu 50 faizədək düşə bilər.

Bir çox yaşayış regionlarında sellər güclənəcək, çox isti hava səbəbindən ölüm hallarının sayı artacaq.

Qlobal istiləşmə xəstəlikləri tətikləyirmi?

Qlobal istiləşmə təkcə meteoroloji təqvimdə dəyişikliklərə səbəb olmur, həm də xəstəliklərin gedişatını dəyişir. Əksər xəstəliklərin baş vermə müddəti ya uzun, ya da tezliyi artır. Xüsusilə allergik xəstəliklər iqlim dəyişikliyindən çox təsirlənir.

İnsan fəaliyyəti nəticəsində karbon qazı emissiyaları artır və temperatur yüksəlir. Fəsillər artıq əvvəlki kimi deyil. İqlim dəyişikliyinin ən böyük nəticəsi, şübhəsiz ki, temperaturun artmasıdır. Ancaq acı resept bununla məhdudlaşmır.

Quraqlıq, daşqınlar, qasırğalar, okean və dəniz suyunun səviyyəsinin qalxması, suda turşuluğun artması, buzlaqların əriməsi kimi ekstremal hava hadisələri bütün canlılar üçün ciddi risklərdir. Qlobal istiləşmənin başqa bir qorxulu tərəfi onun xəstəliklərə təsiridir.

Dünyanın tarazlığının pozulması nəticəsində bütün ekosistemlərdə görülən mənfi təsir üzücü mənzərəni ortaya qoyur. Türkiyəli mütəxəssislər danışır: "Temperaturların mövsüm normalarından yüksək olması bitkilərin normaldan daha tez tozlanmasına səbəb olur ki, bu da tozcuqların çox daha erkən görünməsinə səbəb olur. Erkən istiləşmə və daha sonra soyuma polen mövsümlərinin ön plana çıxmasına və daha uzun sürməsinə səbəb olur. "Polen" allergiyası olanlarda burun axması, qaşınma, asqırma, burun tıkanıklığı kimi allergik rinit əlamətlərinin əvvəlki illərə nisbətən daha erkən başladığını, daha şiddətli olduğunu və daha uzun sürdüyünü görürük".

Qlobal istiləşmə ilə bağlı ekstremal hava hadisələri getdikcə tez-tez özünü göstərir. Günlərlə, hətta həftələrlə davam edən meşə yanğınlarında geniş yaşıllıq sahələri məhv edilir, vəhşi heyvanların məskunlaşdığı yerlər külə çevrilir. Bu yanğınların insan sağlamlığında buraxdığı izləri izah edən Dos. Dr. Zeynep Çələbi Sözener belə izah edir: "ABŞ-da 2017-ci ildə Kaliforniya yanğınlarında tənəffüs və ürək-damar sistemi ilə əlaqəli, astma tutmaları ilə bağlı xəstəxanaya gündəlik 300-dən çox müraciət qeydə alınıb. Braziliyadan verilən məlumatlarda, Amazon meşə yanğınlarında havanın çirklənməsi səbəbindən tənəffüs şikayətləri ilə bağlı xəstəxanaya müraciətlərin yüzdə 23 artdığı ifadə edildi.

Yanğınlardan başqa sağlamlığa mənfi təsir göstərən digər amil qum fırtınalarıdır. Xüsusilə Yaxın Şərq, Şimali Afrika və Sakit okean regionu üçün ciddi təhlükə yaradır. Bu tozların tərkibində havanın çirklənməsinə səbəb olan hissəcikli çirkləndiricilər, həmçinin allergenlər və mikrob hissəcikləri var. Sözener, "İranda və ölkəmizdə aparılan araşdırmaların nəticələri göstərir ki, toz konsentrasiyasının yüksək olduğu günlərdə astma tutması ilə xəstəxana və təcili yardıma müraciətlər çox olur və ölüm riski artır".

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Sevinc TELMANQIZI

Bu gün Bakı dəhşətli tıxaca hazır olmalı

Bəs hər dərs ili başlayanda bu vəziyyətin yaranmasında günahkar kimdir?

Bu gün ölkədə təhsil müəssisələrinin açılması eyni zamanda paytaxtda tıxacların da yaranmasına səbəb olacaq. Hər il sentyabr 15-i eyni hadisənin şahidi oluruq. Paytaxtın mərkəzi küçə və prospektlərinə uzunmüddətli avtomobil tıxacları qaçılmaz olur.

Bəs bu tıxacların yaranmasında günahkar kimdir? Yolları tıxaclardan necə təmizləmək olar?

Məsələ ilə bağlı Yenisabah.az-a danışan **nəqliyyat eksperti Elməddin Muradlı** bildirib ki, bundan qurtulmaq üçün hökmən ictimai nəqliyyatı inkişaf etdirmək lazımdır:

"Təəssüflər olsun ki, sabahdan sözün əsl mənasında qara günlər başlayır. Bunun baş verməməsi üçün çıxış yolları həmişə deyilib, müzakirə olunub və bir daha təkrarlamaq bəlkə də faydalı olacaq. Bunu çıxış yolu ictimai nəqliyyatı inkişaf etdirmək, yol şəbəkəsini nəzarətdə saxlamaqdır. Yol infrastrukturunu qorumaq, düzgün idarə etmək, qurmaq lazımdır. Bütün bunlar düzgün formada həyata keçirilməlidir.



Məsələn, Bakı-Sumqayıt yolunda ilin hər günü tıxac var, səhər Bakı istiqamətində, axşam da Sumqayıt istiqamətində hər gün tıxac olur. Səbəb bəllidir, vətəndaş Sumqayıtda yaşasa da, iş yeri Bakıdadır. Ümumiyyətlə, Azərbaycanın 70 faizinin dolanışığı Bakıdan çıxır. Hamı Bakıya axışır. Rayonda iş tapa bilməyən Bakıya üz tutur. Əvvəl xaricə, Rusiyaya gedirdilər, indi isə yalnız Bakıya gəlirlər, çünki artıq Rusiyada da iş yoxdur. Artıq Rusiyada, Ukraynada olan həmvətənlərimiz də qaçıb Bakıya gəliblər. Quru sərhədlər bağlı olduğu üçün ticarətlə məşğul olmaq mümkün deyil, təyyarə də hamıya əlçatan, sərfəli deyil. Hamı Bakıda oturub. Azərbaycan Bakıdan ibarət deyil. Sosial-iqtisadi cəhətdən bölgələri inkişaf etdirmək lazımdır ki, insanlar bölgələrdə qalsınlar. Bu gün daxili miqrasiya prosesi gedir, rayonlardan Bakıya axın var. Kimi də dindirsən deyir ki, iş tapa bilmirəm.

Bəzilərinin düzgün, bəzilərinin səhv səbəbləri var, bəziləri tənbəldir, işləmək, mal-qara, toyuq-cücə saxlamaq istəmir, deyir gedim Bakıda "Prius"la sürücü işləyim, qoy desinlər ki, Əhməd kişinin oğlu Bakıda işləyir, şəhərdə yaşayır. Belə insanlar da var. Səbəblər köklüdür, bunların üzərində işləmək lazımdır. İnsanlara deyə bilməzsən ki, niyə gedirsən, amma onlara öz bölgələrində şərait yaratmaq lazımdır ki, iş üçün şəhərə gəlməyə məcbur olmasın, Bakı deyib bura qaçmasınlar".

Ekspert qeyd edib ki, mövcud problemlərin yaranmasında sabiq nəqliyyat naziri və onun komandasının səriştəsizliyi böyük rol oynayıb: "Bakı-Sumqayıt yolunu bir neçə dəfə təmir edib, genişləndiriblər. Xırdalan dairəsindəki tunel tikiləndə biz təklif etdik ki, asma körpü olmalıdır, "Koroğlu"dakı modelin mini formasını orada tətbiq etmək lazımdır, lakin bunu etmədilər. Keçmiş nəqliyyat naziri Ziya Məmmədov və onun komandası vaxtilə bərbad nəqliyyat siyasəti yürüdüb və bu gün ictimai nəqliyyat, yol infrastrukturu çökür, qaldıra bilmirlər. Bu problemlər sanki onların dövründə basdırılmış minalardır, indi bir-bir partlayır. İctimai nəqliyyat inkişaf edə bilmir, yeganə çıxış yolu ictimai nəqliyyatı inkişaf etdirməkdir. İnsanlar üçün o qədər gözəl şərait yaradılmalıdır ki, onlar özü maşınla yola çıxmamağa, ictimai nəqliyyatdan istifadə etməyə qərar versin. Rayondan gəlib Bakıda kirayə qalan tələbə belə məcburdur ki, taksidən istifadə etsin, yoxsa dərsə gecikir. Yazıq tələbə nə qədər pul qazanır ki, hər dəfə bunu etsin?

Vaxtilə səkiləri satıblar, səkilərin yerində obyektlər, binalar tikiblər. Bunları həll etmək çətindir. Qara Qarayev prospektinin yaşıllıqlarını Xətai Rayon İcra Hakimiyyətinin bir neçə başçısı məhv edib. Hamısı pulun qarşılığında edilib. İndi də Qara Qarayev prospektinin bir tərəfini avtobus zolağı, bir tərəfini geriyədönmə zolağı ediblər, vəssalam".

YENİ MÜSAVAT

Son səhifə

N 164 (8300) 15 sentyabr 2023

sentyabr



Dərbənddə yanar suda çimən turistin maraqlı görüntüləri

Sosial şəbəkələrdə sözün həqiqi mənasında alovlanan suda duş alan gənc barədə görüntülər böyük maraqla qarşılanıb. Kadrlar Dərbənd şəhərinin Belici kəndindəndir (Dağıstan). Yerlilərin dilində "Qoryaçka" adlanan bu bulağın suyu əslində +40 dərəcəni keçmir. Alova səbəb isə suyun tərkibində xlorid kalsiumun yüksək miqdarda olmasıdır.

İspaniyanın Kastelon əyalətində güclü tufan əraziyə böyük ziyan vurub

İspaniyanın Kastelon əyalətində güclü tufan əraziyə böyük ziyan vurub, həyatı iflic edib. Məlumata görə, qasırğa bələdiyyə binasının divarlarını, eləcə də damını dağıdıb. Bələdiyyə başçısının sözlərinə görə, artıq müvafiq xidmətlərin nümayəndələri fırtınadan dəyən ziyanı qiymətləndiriblər. Əlverişsiz hava şəraiti səbəbindən şəhərdə yüzdən çox ağac, hasarlar və işıq direkləri aşıb, pəncərələr sınıb. Qeyd edək ki, nəticələri tez bir zamanda aradan qaldırmaq üçün Kastelon əyaləti və digər bələdiyyələr bölgəyə yardım göndəriblər.

Peruda yadplanetli olduğu iddia edilən cəsədlər tapılıb

Meksika Konqresində iki qeyri-adi fosilləşmiş (daşlaşmış) cəsəd təqdim olunub. Perunun Kusko şəhərində mədən sahəsində çıxarılan bu cəsədlərin insan olmadığı, yadplanetli olduğu iddia edilir. Məlumata görə, onların min il yaşı var.

İt kimi hürür, tülkü kimi görünür: unikal heyvan tapılıb



Braziliyada pampa tülküsü və ev itinin hibridi olan qeyri-adi heyvan aşkar edilib. Mütəxəssislər vəhşi təbiətdə belə bir nümunə ilə ilk dəfə qarşılaşdıqlarını bildiriblər. Unikal heyvana "dogxim" adı verilib. Qəribə heyvan 2021-ci ildə avtomobil tərəfindən vurulduqdan sonra müəyyən edilib. Baytarlar uzun müddət qarşılarında nə olduğunu başa düşə bilməyiblər: onda tülkü və itlərə xas olan xüsusiyyətlər olub. Məsələn, heyvan it kimi hürüb, ancaq kürkü və ağız quruluşu tülkünü xatırladıb.

Test nəticələri yalnız bu yaxınlarda gəlib və bundan sonra heyvanın unikallığı aydın olub. Qeyd edilir ki, insanlardan qorxmasına baxmayaraq, heyvan mehribandır və özünü sığallamağa icazə verir. Mütəxəssislər hesab edirlər ki, vəhşi təbiətdə daha bir neçə belə fərd ola bilər.

Avstraliya muzeyində alimlər sirli artefaktın mənşəyini aşkar ediblər

Yaşının 240 milyon ildən çox olduğu təsbit edilən daşlaşmış heyvan qalığı uzun müddət Avstraliya muzeyində saxlanılsa da, elm adamları onun hansı heyvana məxsus olduğunu müəyyən edə bilməyiblər. Heyvanın cəsədinin inanılmaz dərəcədə yaxşı əks olunduğu daş ötən əsrin sonunda yerli karxanada tapılaraq Sidneydəki Avstraliya muzeyinə təhvil verilib.

Qabaqcıl texnologiyaya əsaslanan son araşdırmalar sirli izin uzunluğu təxminən bir metrə çatan qədim amfibiya skeletinə aid olduğunu aşkar etməyə imkan verib. Timsah və salamandranın hibridinə bənzəyən heyvan ilk dinozavrlar ortaya çıxdığı dövrdən əvvəl Yer kürəsində yaşayıb, sonra isə onlarla qonşu olub. Suda-quruda yaşayan heyvan, göründüyünə görə, vaxtının çox hissəsini suda balıq və digər suda yaşayan canlıları ovlamaqla keçirirdi. Yeni heyvan növünə "Arenaerpeton supinatus" adı verilib.

Alimlərin sözlərinə görə, qədim heyvanların daşda izlərinin bu dərəcədə yaxşı qorunub-saxlanmasına çox nadir hallarda rast gəlinir. "Biz başı bədənində olan skeletlərə elə də tez-tez rast gəlmirik, yumşaq toxumaların qorunub-saxlanması isə daha nadir rast gəlinən haldır", - deyə onlar bildiriblər.

İdmanla məşğul olanda infarktı yaradan SƏBƏBLƏR

Gizzard idman, məşq və üzgüçülükdən öncə yüngül bədən açıcı hərəkətlər etmək lazımdır. Bir çoxları bunu gözardı edir və dərhal məşqə başlayır. Məhz bu triqqer miokard infarktını tətikləyir. Kardioloq Aleksandr Kiryakov idman edən kişilərin infarktdan qorunması üçün bəzi tövsiyələri verib."İdmanda ürək tutmasının səbəblərindən biri də düzgün olmayan tənəffüs, xroniki xəstəliklər və xəbərsiz olduğunuz ürək-damar problemləri ola bilər. İdmandan, hovuzdan öncə bədənin, ürəyin yavaş-yavaş qızışdırılması, isidilməsi vacibdir. Birdən-birə ağırlıq qaldırma, hovuza atılma, idman ürək ritmini poza, təzyiqi qaldıra bilər. Bu da qəfil ürək tutmasına səbəb olur.

Risk qrupunda aşırı artıq çəkili insanlar, ilk dəfə idmana gedənlər, fiziki forması hazırlıqsız olanlar, siqaret çəkənlərdir. İdman edərkən sinədə, döş qəfəsində sıxıcı ağrı və diskomfort artıq həkimə getməyə əsasdır. İdmanda istidən soyuğa və ya əksinə keçid etmək də təhlükəlidir".

Bunları bilirsinizmi?

* İnsanlar ekvatora yaxın ölkələrdə bir az az yatır.
* Hər bir insan yemək bişirmək üçün 2.5 ilini, yemək üçün isə 3,5 ilini sərf edir.
* Qadınlar 17 ilini yalnız artıq çəkidən xilas olmaq üçün xərcləyirlər.
* Qadınlar 8 ilini alış-verişə, 1,5 ilini isə qadın salonunda keçirir.
* İnsan 1 ilini ev təmizliyinə sərf edir.
* İnsan ömrünün 10 ilini işləməklə keçirir. (20-65 yaş arası həftədə 40 saat işləyənlər)
* İnsan ömrünün 90 faizini qapalı mühitdə keçirir.
* İnsan ömrü boyunca 9 il televiziya seyr edir. 2 il isə sadəcə reklamları izləyir.
* Hər bir insan ildə 2 min yuxu görür.
* Hər bir insan təxminən 4,5 il avtomobil idarə edir və bu insanlar ilin 3 ayını yollarada keçirir.
* Parisin küçələrini bəzəyən şabalıd ağacları Fransaya Türkiyədən gətirilmişdir.
* İnsan 1,5 ilini hamamda keçirir.
* "Bugatti Veyron" avtomobili ən yüksək (420 km) sürətlə gedərsə, 13 dəqiqədən sonra təkərləri əriyər. Ancaq bu demək olar ki, mümkün deyil. Çünki 8 dəqiqə sonra benzini bitir.
* Eskimoslarda ailəsindən məmnun olmayan uşaq istədiyi başqa bir ailəylə birlikdə yaşaya bilər.

Qadın sonsuzluğuna qarşı yeni dərman tapıldı



Çikaqo Universitetinin alimləri yumurtalıqların polikistik sindromunun (YPS) səbəb olduğu qadın sonsuzluğu üçün yeni dərman tapıblar. Araşdırmanın nəticələri "International Journal of Molecular Sciences" jurnalında dərc olunub. Polikistik yumurtalıq sindromu bir çox simptomlara və çox vaxt aydın olmayan səbəblərə görə müalicəsi çətin olan endokrin xəstəlikdir. YPS-in nəticələrinə hormonal tarazlığın, məhsuldarlığın və ümumi sağlamlığın pozulması daxildir.

İndi mütəxəssislər hüceyrədənkənar veziküllərə (HV) əsaslanan terapevtik yanaşma işləyib hazırlayıblar. Bu molekullar mezenximal kök hüceyrələrdən (MKH), yenilənmək üçün bir çox başqa hüceyrə növlərinə çevrilə bilən yetkin hüceyrələrdən əldə edilib.

Nəticədə, belə HV-lər YPS-in əlaməti olan androgenik hormonların həddindən artıq istehsalını təşviq edən genlərin fəaliyyətini azaldır. Müalicə həmçinin siçanlarda yüksək qlükoza səviyyələrini sabitləşdirməyə kömək edib. Təcrübədə HV-lər ya qan damarlarına, ya da birbaşa siçanların yumurtalıqlarına vurulub və hər iki halda yumurtalıq funksiyasını effektiv şəkildə bərpa edib.

Sutkanın hansı saatında şokolad yemək olar?

Belə bir mif var ki, əgər siz səhər şokolad yesəniz, o zaman kökələcəksiz və orqanizmə zərərdən başqa bir şey verməyəcək. Harvard Universitetinin alimləri şokoladın sutkanın müxtəlif saatlarında orqanizmə təsirini araşdırıb. Onlar 19 qadına 2 həftə ərzində hər gün 100 qram südlü şokolad verib. Qadınların bir qrupu şokoladı səhər, digəri axşam yeyib, digərləri heç yeməyib.

Nəticələr göstərib ki, hər gün şokolad yemək vaxtından asılı olmayaraq, çəkinin artmasına səbəb olmayıb. Amma rejim energetik balans və maddələr mübadiləsinə müxtəlif cür təsir edib. Belə ki, şokoladı səhər yemək qanda qlükozanı artırmır və yağların yandırılmasına təsir edir.

Eləcə də səhər şokolad yeyənlər daha gec acıyıb və gün ərzində az kalori qəbul edib. Amma axşam bir dilim şokolad yuxunu yaxşılaşdırır.

Səhifəni hazırladı: SELCAN

Baş redaktor: Nazim SABİROĞLU

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d

Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Sifariş: 2374

Lisenziya N: B 114

SAYI: 1.500

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.